F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Xalq mənəviyyatının güzgüsü - "Molla Nəsrəddin" jurnalı

Bir Əsrin Tənqidi Yaddaşı olan Molla Nəsrəddin jurnalının 120 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

Bakı - 2026

**Tərtibçi:** **Aynurə Əliyeva**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Xalq mənəviyyatının güzgüsü -** Molla Nəsrəddin jurnalının 120 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait /tərt. ed. A. Əliyeva; red. R.Məmmədli; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2026.- 92s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Giriş

*"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım o kəsləri deyib gəlmişəm ki, söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmaga, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.*

*Ey mənim müsəlman qardaşlarım. Zəmanə ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb gözlərinizi yumub o qədər xa-xa edib güldünüz ki, az qala bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib "lənət şeytana" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz. Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxın camalınıza."*

"Molla Nəsrəddin" jurnalı

Azərbaycanda milli mətbuatın yaranması xalqın ictimai şüurunun formalaşması, milli kimliyinin möhkəmlənməsi və maarifçilik ideyalarının yayılması baxımından mühüm tarixi mərhələdir. XIX əsrin ikinci yarısı Azərbaycan cəmiyyətində ciddi dəyişikliklərin baş verdiyi bir dövr idi. Bu dövrdə bir tərəfdən Rusiya imperiyasının tərkibində olan Azərbaycan yeni idarəetmə və sosial münasibətlərlə üzləşir, digər tərəfdən isə Avropa mədəniyyətinin, elmi yeniliklərin və maarifçilik ideyalarının təsiri altında yeni düşüncə tərzi formalaşırdı. Lakin bu dəyişikliklərin geniş xalq kütlələrinə çatdırılması üçün ana dilində informasiya vasitələrinin olmaması ciddi maneə yaradırdı. Əhali əsasən savadsız idi, dini təsəvvürlər və mövhumat geniş yayılmışdı, ictimai problemlərin açıq müzakirəsi isə demək olar ki, mümkün deyildi. Belə bir şəraitdə milli mətbuatın yaranması tarixi zərurət kimi ortaya çıxdı.

Bu zərurəti ilk anlayan və onu reallığa çevirən şəxs böyük maarifçi, publisist və ictimai xadim Həsən bəy Zərdabi oldu. Onun təşəbbüsü ilə 1875-ci il iyulun 22-də Bakıda Əkinçi qəzeti nəşrə başladı və bununla da Azərbaycan milli mətbuatının əsası qoyuldu. "Əkinçi" yalnız bir qəzet deyil, həm də milli oyanışın, maarifçilik hərəkatının və ictimai fikrin inkişafının başlanğıcı idi. Zərdabi qəzet vasitəsilə xalqı savadlanmağa, elmə yiyələnməyə, dünyada baş verən yenilikləri öyrənməyə çağırırdı. Qəzetin dili sadə və anlaşıqlı idi, çünki əsas məqsəd ziyalılardan çox sadə xalq kütlələrinə müraciət etmək idi.

"Əkinçi" qəzetində kənd təsərrüfatı, təhsil, elm, səhiyyə, sosial problemlər və gündəlik həyatla bağlı mövzular geniş yer alırdı. Zərdabi yaxşı anlayırdı ki, xalqın

inkişafı üçün ilk növbədə onun dünyagörüşü dəyişməlidir. Bu səbəbdən qəzetdə dini fanatizm, savadsızlıq və gerilik açıq şəkildə tənqid olunurdu. Eyni zamanda qadınların təhsili, cəmiyyətdə rolu kimi dövr üçün olduqca həssas mövzular da diqqət mərkəzinə çəkilirdi. Lakin bu cür azadfikirlilik çar Rusiyası hakimiyyətini və yerli mühafizəkar dairələri narahat edirdi. Nəticədə qəzet cəmi iki il fəaliyyət göstərdikdən sonra – 1877-ci ildə bağlandı. Buna baxmayaraq, “Əkinçi”nin ideyaları Azərbaycan mətbuatının sonrakı inkişafı üçün möhkəm təməl yaratdı.

“Əkinçi”dən sonra Azərbaycanda milli mətbuat ənənəsi davam etdirildi və yeni qəzet və jurnallar meydana gəldi. Bu nəşrlər arasında Ziya qəzeti, Kəşkül qəzeti və Ziyayi-Qafqaziyyə qəzeti xüsusi yer tutur. Bu qəzetlər “Əkinçi”nin başladığı maarifçilik xəttini davam etdirərək xalq arasında savadlanma ideyalarını yayır, ictimai problemləri işıqlandırır və milli şüurun inkişafına töhfə verirdi. XIX əsrin sonu – XX əsrin əvvəllərində isə Kaspi qəzeti kimi nəşrlər daha geniş oxucu kütləsinə malik oldu və ictimai-siyasi məsələlərin müzakirəsində mühüm rol oynadı.

XX əsrin əvvəllərində Azərbaycan mətbuatı keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Bu dövr artıq təkcə maarifçilik deyil, həm də ictimai-siyasi tənqid, satira və milli ideologiyanın formalaşması dövrü idi. Bu mərhələnin ən parlaq nümunəsi isə 1906-cı ildə nəşrə başlayan Molla Nəsrəddin jurnalı oldu.

“Molla Nəsrəddin” jurnalı Azərbaycan mətbuat tarixində təkcə bir nəşr deyil, bütöv bir ədəbi-ictimai məktəb idi. Jurnalın yaradıcısı və baş redaktoru görkəmli yazıçı və publisist Cəlil Məmmədquluzadə idi. Onun ətrafında dövrün ən qabaqcıl ziyalıları – Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev və digər tanınmış qələm sahibləri toplaşmışdı.

Jurnalın əsas xüsusiyyəti onun satirik dili və kəskin tənqid ruhu idi. “Molla Nəsrəddin” cəmiyyətin ən ağrılı problemlərini – savadsızlığı, dini fanatizmi, qadın hüquqsuzluğunu, sosial ədalətsizliyi, məmur özbaşınalığını – yumor və satira vasitəsilə ifşa edirdi. Bu yanaşma onu digər nəşrlərdən fərqləndirir və geniş xalq kütləsi üçün daha təsirli edirdi. Jurnalın karikaturaları da xüsusi əhəmiyyət daşıyırdı; onlar sözlə deyil, təsvirlə ictimai problemləri göstərir və oxucuların diqqətini cəlb edirdi.

“Molla Nəsrəddin” yalnız Azərbaycanda deyil, bütün Şərqdə böyük nüfuz qazandı. Onun təsiri ilə İran, Türkiyə, Orta Asiya və digər bölgələrdə də satirik mətbuat inkişaf etməyə başladı. Jurnal bir növ regionda azad fikir tribunası rolunu oynayırdı. O, xalqı düşünməyə, mövcud problemlərə tənqidi yanaşmağa və dəyişikliklərə çağırırdı.

Bununla yanaşı, jurnal milli kimliyin formalaşmasında da mühüm rol oynadı. Ana dilinin qorunması, milli dəyərlərin təbliği və müasir dünyaya inteqrasiya ideyaları jurnalın əsas xəttini təşkil edirdi. “Molla Nəsrəddin” cəmiyyətin güzgüsü kimi çıxış edərək onun nöqsanlarını açıq şəkildə göstərir və islahatların zəruriliyini vurğulayırdı.

Nəticə etibarilə, Azərbaycanda milli mətbuatın yaranması “Əkinçi” ilə başlayaraq tədricən inkişaf etmiş və “Molla Nəsrəddin” kimi güclü ideoloji platformaya çevrilmişdir. Bu proses təkcə jurnalistikanın deyil, bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafına, milli şüurun formalaşmasına və müasir düşüncə tərzinin yaranmasına böyük təsir göstərmişdir. Bu gün də Azərbaycan mətbuatının əsas prinsipləri həmin dövrdə qoyulan maarifçilik, azad fikir və ictimai məsuliyyət ideyalarına söykənir.

Xalq mənəviyyatının güzgüsü “Molla Nəsrəddin jurnalının 120 illik yubileyi, xalq və ədəbi içtimaiyyət və tərəfəndən geniş qeyd edlir. Bu münasibətilə hazirladığımız vəsait iki hissədən ibarətdir. I hissədə “Molla Nəsrəddin” jurnalının Azərbaycan ədəbi mühitində və mətbuatda rolu, II hissədə mövzu ilə bağlı keçirilə biləcək tədbirlərdən söhbət açılır.

Azərbaycan xalqının mətbuat və mədəniyyətinə bir günəş kimi doğan “Molla Nəsrəddin” jurnalının 120 illik yubileyi münasibəti ilə kitabxanada sərgi təşkil olunur. Sərgidə “Molla Nəsrəddin” jurnalından bəhs edən ədəbiyyatla dövrü mətbuat materialları qoyulur. Həmçinin sərgidə görkəmli şəxsiyyətin mövzu ilə bağlı söylədiyi kəlamlara yer verilir. Sərgiyə müxtəlif başlıqlar, ““Molla Nəsrəddin”dən Zamanın Güzgüsünə”, “Bir Jurnalın Oyatdığı Millət”, “Satiranın Səsi, Cəmiyyətin Vicdanı”, “Karikaturaların Danışdığı Tarix”, “Qələmin Üsyanı: “Molla Nəsrəddin” Dünyası””, “Gülüşlə Başlayan Maarifçilik”, “Bir Əsrin Tənqidi Yaddaşı”, “Satira ilə Yazılan İntibah”, “Sözün və Karikaturanın İnqilabı”, “Cəmiyyətə Tutulan Güzgü”, ““Molla Nəsrəddin”: Dünənin Dərsi, Bugünün Həqiqəti”, “Gülüşün Arxasındakı Həqiqətlər”, “Bir Millətin Oyanış Salnaməsi”, “Satiranın İşığında Şərq Dünyası”, “Karikatura ilə Danışan Ədalət”, “Cəlil Məmmədquluzadənin Açdığı Yol”, “Gülərək Düşündürən İrs”, “Zamanı Silkələyən Jurnal”, “Qələmin Cəsarəti, Dövrün Həqiqəti”, ““Molla Nəsrəddin”dən Gələn Səslər”, “Bir Əlin Qələmi, Bir Dövrün Taleyi”, “Maarifçilikdən Satiraya Uzanan Yol”, “Əsrləri Aşan Gülüş”, “Satira Tarixinin Zirvəsi”, “Karikaturaların Arasında Bir Əsr”, “Millətin Vicdanına Çevrilən Jurnal”, “Gülüşlə Yazılan Mübarizə”, “Zəmanəyə Etirazın Adı”, ““Molla Nəsrəddin” və Azad Fikir Dünyası”, “Şərqin İlk Böyük Satirik Tribunası”, “Bir Dövrün Susmayan Səsi”, “Satira ilə Oyanan Cəmiyyət”, “Düşündürən Gülüşün Sərgisi”, “Tarixi Karikaturaların İzində”, “Sözün

Gücü, Satiranın Qələbəsi", "Mətbuat Tariximizin Ən Parlaq Səhifəsi", "Gülüşün İçində Gizlənən Həqiqət", "Satiranın Rəngləri və Zamanın Üzü", ""Molla Nəsrəddin": Keçmişdən Gələcəyə Körpü", "Qələm, Karikatura və Azadlıq" və s. verilə bilər.

Bununla yanaşı kitabxanada "Molla Nəsrəddin" jurnalının 120 illik yubileyi əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də **"konfrans"** dır. Konfrans yuxarı sinif şagirdləri arasında təşkil edilir. Konfransdan əvvəl onun proqramı tərtib olunmalı, keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edən qonaqların, tarixçilərin, siyasətçilərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi dəqiq vaxt məkan və zaman qeyd olunur. Oxucu konfransının planını sizə təqdim edirik:

1.Giriş hissə (doğan "Molla Nəsrəddin" jurnalının 120 illik yubileyi qeyd edilməsi haqqında məruzə).

2."Molla Nəsrəddin" jurnalı haqqında kitabxana rəhbərliyinin, jurnalist, yazıçı və tarixçilərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların "Molla Nəsrəddin" jurnalı haqqında məruzələri.

4.Konfransın yekunu.

*Kitabxanaçı "Azərbaycanın satira jurnalları: dünəndən bu günə" adlı çıxışına başlayır.*

1906-cı ildə nəşrə başlayan və illər ərzində öncüllüyünü, bənzərsizliyini saxlayan "Molla Həsrəddin" jurnalının ictimai mühitə təsiri çox güclü oldu. Bu çıxışda "Molla Nəsrəddin" jurnalından sonra Azərbaycanda nəşr olunan satirik jurnalların xronologiyasına nəzər salınacaq. "Molla Nəsrəddin" jurnalının təsiri altında Azərbaycanda "Bəhlul" (1907), "Zənbur" (1909-1910), "Mirat" (1910), "An" (1910-1911), "Kəlniyyət" (1912-1913), "Lək-lək" (1914), "Tuti" (1914-1917), "Məzəli" (1914-1915), "Babayi-Əmir" (1915-1916), "Tartan-Partan" (1918), "Şeypur" (1918-1919), "Zənbur" (1919), "Məşəl" (1919-1920) kimi Azərbaycan dilində nəşr olunan satirik jurnallarla yanaşı, bu dövr Bakıda rus dilində "Cigit" (1907-1918), "Vay-vay" (1908), "Bakinskoe qore" (1908-1909), "Biç" (1909-1915), "Adskaya poçta" (1909-1910), "Bakinskiye strelı" (1910), "Baraban" (1912-1913) kimi satirik jurnallar da dərc olunurdu.

"Zənbur" məcmuəsi 1909-1910-cu illərdə Bakıda "Molla Nəsrəddin" jurnalının təsiri ilə nəşr edilən həftəlik satira jurnalı idi. Jurnalın naşiri həkim və yazıçı Əbdülxalıq Axundov, redaktoru əvvəlcə Rzabəy Səlimxanov, sonra isə Əzim

Əzimzadə və nəhayət, knyaz Murtuz bəy Palavandov olmuşdu. Jurnalda Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Abbas Səhhət, Əliabbas Müznib və başqaları fəal iştirak ediblər. "Babayi-Əmir" jurnalı 1915-ci il 21 apreldən 1916-cı il 17 oktyabradək Bakıda nəşr olunub. Jurnalın redaktoru Əlabbas Müznib, naşiri onun qardaşı Əbülfəz Mütəlliboğlu olub. Cəmi 65 nömrəsi çapdan çıxıb. "Babayi-Əmir" jurnalının nəşrinə "Molla Nəsrəddin" jurnalının böyük təsiri olmuşdu. 26-31-ci nömrələri üçün Əzim Əzimzadə rəngli rəsmlər çəkmişdi. (26-cı nömrəsinədək jurnal rəngsiz çap olunurdu. "Babayi-Əmir"in əməkdaşları arasında M.S.Ordubadi, Əli Nəzmi, Seyid Hüseyn, Ə.Vahid, B.Abbaszadə (Hambal), H.İ.Qasımov və başqaları vardı. Sələfi "Molla Nəsrəddin" jurnalı kimi, "Babayi-Əmir"də də felyeton, satirik şeir və s. janrlardan istifadə edilirdi. "Babayi-Əmir"in səhifələrində mədəniyyət məsələləri, dini fanatizm əleyhinə mübarizə və sair mövzularda yazılara, rəsmlərə geniş yer verilirdi. Yazıları əsasən şeirlərdən ibarət idi. "Zərərli istiqamətinə görə" "Babayi-Əmir" jurnalının nəşri dayandırılmışdı.

1914 fevral ayının 22-dən həmin ilin 30 iyununadək nəşr olunmuş, cəmi 12 nömrəsi işıq üzü görmüş "Lək-lək" (əslində senzura sənədlərində "Leylək" jurnalının ərəb qrafikalı əlifbadan transliterasiyasıdır. "Lək-lək" "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrini davam etdirib. Jurnalın naşir və redaktoru Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə olub. Jurnal İrəvandakı "Luys" mətbəəsində çap edilirdi. Onun nəşrinin dayandırılması ilə bağlı müəllifin qeydləri var. Jurnalda dövrün ictimai-siyasi, ədəbi və mədəni hadisələri ilə yaxından tanış olmaq mümkündür.

"Lək-lək" indiki Ermənistanda türk dilində nəşr olunan ilk mətbuat orqanı, həftəlik məzhəkəli məcmuə olub. 1913-cü ildə "Lək-lək"in nəşrinə icazə verilməsi haqqında senzura sənədlərində Gürcüstan SSR Mərkəzi Dövlət Tarix Arxivindəki 480-ci fondun 1-ci siyahısının 968 nömrəli iş-qovluğunda İrəvan qubernatorunun "Lək-lək"i buraxmaq haqqında Mir Məhəmməd Mir Fətullayevə və Cabbar Əsgərzadəyə verdiyi 21 yanvar 1914-cü il tarixli şəhadətnaməsində jurnalın baş məqalələr, şeir, şəhər işləri, Qafqaz xəbərləri, teleqramlar, xarici və daxili xəbərlər, felyeton, təmsil, poçta qutusu, elanlar çapına icazə verilmişdi. "Lək-lək" jurnalının 1914-cü il fevralın 22-də 1-ci nömrəsi, 12-ci nömrəsi isə həmin ilin 30 iyununda nəşr olunub.

Akademik İsa Həbbibbəylinin araşdırmalarında vurğulanır ki, "Molla Nəsrəddin" ədəbi məktəbi çox geniş anlayış olub, özündə bir neçə yaradıcılıq istiqamətini, çoxsaylı yaradıcı qüvvələri birləşdirirdi: "Bir çox yaradıcılıq sahələri "Molla Nəsrəddin" ədəbi məktəbi içərisində, onun hüdudları daxilində xüsusilə inkişaf edərək daha qabarıq şəkildə nəzərə çarpıb. Beləliklə, vahid ədəbi məktəb daxilində bir neçə məktəb, necə deyərlər, məktəb içində məktəblər yaranıb. "Molla

Nəsrəddin" satirik şeir məktəbi, mollanəsrəddinçi yeni nəsr, satirik publisistika və karikatura məktəbləri "Molla Nəsrəddin" ədəbi məktəbinin üzvi tərkib hissələridir. Doğrudur, bu məktəblərdən hər biri, xüsusən, mollanəsrəddinçi satirik şeir məktəbi həm də müstəqil ədəbi məktəb təsiri bağışlayır. Hətta "Molla Nəsrəddin" şeir məktəbinin zəminində formalaşmış və xüsusi bir Sabir satira məktəbi də nəzərə çarpmaqdadır. Yaxud "Molla Nəsrəddin" karikatura məktəbi ənənələri əsasında ayrıca Əzim Əzimzadə karikaturaçılıq məktəbinin yaranması da inkarolunmaz faktdır. Bütün bunlar nəinki "Molla Nəsrəddin" ədəbi məktəbinin əhəmiyyətini azaltmır, əksinə, bu möhtəşəm məktəbin geniş sənət imkanlarını nümayiş etdirir. Görkəmli Azərbaycan ədəbiyyatşünası Firidunbəy Köçərlinin fikrincə, "nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etmək" mollanəsrəddinçi təlimin baş xəttini müəyyən edir. Cəlil Məmmədquluzadənin məsləkdaşı Ömər Faiq Nemanzadə mollanəsrəddinçiliyi aşağıdakı kimi mənalandırırdı: "Molla Nəsrəddin"in gedəcəyi yol birdir ki, o da hər şeydən artıq öz qüsurlarımıza, öz üstümüzdəki ləkələrə, tərəqqiyə mane olan cahilanə adətlərimizə acı-acı gülüb, millətin səadətinə çalışmaqdır".

Dövrünün görkəmli ziyalılarından Yusif Vəzir Çəmənzəminli mollanəsrəddinçilikdə "geniş kütlənin anlayacağı bir dildə" yazıb-yaratmağı zəruri faktor kimi ön mövqeyə çəkmişdi. Hətta realizmlə müqayisədə əks mövqeyi təmsil edən Əlibəy Hüseynzadə də bu qənaətdə idi ki, "Molla Nəsrəddin"in ələ aldığı balta zöhk və xəndə, istehza və rişxənddən, müstəhziyanə yazı və şəkillərdən ibarətdir". Möhtərəm Əli bəy Hüseynzadənin Cəlil Məmmədquluzadə ilə 1910-cu ildə Tiflisdəki tarixi görüşü zamanı söylədiyi "açıq yazmağı bacarmaq hünərdir" kəlamı da mollanəsrəddinçi ədəbiyyatın ən çox mübahisə doğurmuş dil siyasətinin üstünlüyünə verilmiş yüksək qiymətin ifadəsi idi.

Mollanəsrəddinçilik təlimi "Molla Nəsrəddin" ədəbi məktəbinin anayasası, nizamnaməsi və əsasnaməsidir.

Mollanəsrəddinçilik - ictimai satira vasitəsilə mövcud cəmiyyəti yeniləşdirmək, məmləkəti irəli aparmaq deməkdir.

Mollanəsrəddinçilik - xalqın milli-mənəvi özünüdərkinin, millətin siyasi oyanışı və ayıqlığının hərəkətverici qüvvəsidir. Milli müstəqillik və azadlıq uğrunda mübarizə mollanəsrəddinçilik təliminin baş xəttini təşkil edir. Mollanəsrəddinçilik təliminin daşıyıcısı olan "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilər milli istiqlala bir ordudan ziyadə xidmət göstərmişdi. Bu mənada "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının ən böyük istiqlal kitabıdır. Mollanəsrəddinçilik - milli istiqlal məfkurəsinin cövhərini təşkil edir. Yaxud milli istiqlal uğrunda mübarizə dövrün digər axınları ilə müqayisədə daha çox mollanəsrəddinçilikdən keçib".

Sovetlərin vaxtından bəri, onillərdir ki, yaddaşlarda özünə möhkəm yer tutmuş "Kirpi" jurnalının saylarına yenə də köşklərdə rast gəlmək olur. Ötən yüzilin 90-cı illərinə kimi jurnalın hər sayı ictimai mühitdə böyük maraqla qarşılanırdı. Görünür, 90-cı illərdən başlayaraq satirik jurnalların artması, ümumiyyətlə, qəzet-jurnal bolluğu "Kirpi"nin tədricən ictimai mövqeyinə təsir göstərdi.

Jurnalın baş redaktoru Polad Qasımovun jurnalın qayəsini ifadə edən fikirləri maraqlıdır: ""Molla Nəsrəddin" jurnalı fəaliyyətini dayandırdıqdan sonra Azərbaycan mətbuatında satira-yumor sahəsində boşluq yaranmışdı. Bu boşluğu doldurmaq, bürokratları, rüşvətxor və el malını talayanları, cəhalət tör-töküntülərini, adət-ənənələrimizə, mənəvi dəyərlərimizə xor baxanları rüsvay etmək, satira və yumoru qoruyub saxlamaq və onu daha da inkişaf etdirmək üçün 1952-ci ilin yayında "Kirpi" jurnalı fəaliyyətə başladı. Jurnal ilk sayında öz sələfinə müraciət edərək bildirirdi ki, onun ənənələrini şərəflə davam etdirəcək, xalqın keşiyində dayanacaq, hər cür haqsızlığa qarşı mübarizədə Mirzə Cəlil sözünün gücündən, onun ölməz satirasından bəhrələnəcək.

Bu gün "Kirpi" öz vədinə, öz sözünə əməl etməkdədir. Xalq öz satirik tribunasından istifadə edərək haqqı nahaq ayağına verənləri, irəliləyişimizə mane olmağa cəhd göstərənləri, "burda mənəm, Bağdadda kor xəlifə" iddiasına düşənləri, adamları incidən, onları get-gələ salan rüşvətxor, bürokrat idarə rəhbərlərini sözün və fırçanın gücü ilə doğru yola, saflığa və paklığa çağırır. Bu illər ərzində "Kirpi"nin ətrafında həm də böyük ədəbi məktəb yaranıb. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Süleyman Rəhimov, Əli Vəliyev, Mir Cəlal, Sabit Rəhman, Əvəz Sadıq, Seyfəddin Dağlı, Salam Qədirzadə kimi görkəmli şair və yazıçılar, İsmayıl Axundov, Həsən Haqverdiyev, Ziya Kərimbəyli, Nəcəfqulu, Hüseyn Əliyev, Adil Elçin, Hafiz Nəsiroğlu kimi məşhur fırça ustaları "Kirpi"nin səhifələrində öz dəyərli əsərləri ilə oxucuları güldürüb, düşündürüb, insanları mənəvi saflıq uğrunda mübarizəyə səsləyiblər. İndi də belədir, "Molla Nəsrəddin" ənənələri yaşayır və davam etdirilir. "Kirpi"əvvəllər olduğu kimi yenə də həyatımızda baş verən neqativ hallardan, dövlətçiliyimizin, müstəqilliyimizin möhkəmlənməsi yolunda əl-ayağa dolaşanlara, vəzifə hərislərinə, işinin öhdəsindən gələ bilməyən məmurlara, süründürməci və bürokrat idarə və müəssisə rəhbərlərinə sərrast satira atəşi açır, Mirzə Cəlilin, Sabirin, Üzeyir bəyin düşündürən gülüşünün işığı ilə hər evin, hər ailənin qonağı olmağa çalışır. "Kirpi" jurnalı daim öz sevimli oxucularına, ölkənin satira-yumoru qiymətləndirən ziyalılarına arxalanır. Onların verdiyi yüksək qiymətin, məktub və siqnalların müqabilində düzü-düz, əyrini-əyri görmək üçün jurnal daim axtarır, araşdırır, yeni-yeni görüşlərə tələsir. Bizim məqsədimiz satira və yumorun gücü ilə sağlam cəmiyyətdə sağlam ab-hava yaratmaqdır. Satira xalqdan gələn bir janrdır, nə qədər xalq var, satira da yaşayacaq".

*I iştirakçı "Molla Nəsrəddinin yaranma səbəbi və zəruriyyəti" adlı çıxışına başlayır.*

XX əsrin əvvəllərində Azərbaycan cəmiyyəti mürəkkəb və ziddiyyətli bir mərhələdən keçirdi. Bir tərəfdən, yeni iqtisadi münasibətlər, şəhərləşmə və Avropa təsiri nəticəsində müasir düşüncə tərzi formalaşmağa başlayırdı, digər tərəfdən isə cəmiyyətin böyük hissəsi hələ də savadsızlıq, dini fanatizm, sosial ədalətsizlik və köhnə düşüncə qəliblərinin təsiri altında qalırdı. Bu ziddiyyətlər ictimai fikirdə gərginlik yaradır, dəyişikliklərə ehtiyacın getdikcə daha aydın hiss olunmasına səbəb olurdu. Məhz belə bir tarixi şəraitdə kəskin, təsirli və xalqın anlaya biləcəyi dildə danışan yeni tipli mətbuat orqanına ehtiyac yaranmışdı. Bu ehtiyacın nəticəsi kimi 1906-cı ildə Molla Nəsrəddin jurnalı meydana çıxdı.

Jurnalın yaradıcısı və ideya rəhbəri Cəlil Məmmədquluzadə idi. O, dövrün sosial problemlərini yalnız ciddi publisistik məqalələrlə deyil, daha geniş təsir gücünə malik olan satira vasitəsilə çatdırmağın vacibliyini dərk edirdi. Çünki cəmiyyətin böyük hissəsi üçün quru və akademik üslubda yazılmış məqalələr təsirli deyildi. İnsanlara düşündürmək, onları sarsıtmaq və dəyişməyə təşviq etmək üçün daha kəskin və eyni zamanda anlaşıqlı bir dil lazım idi. "Molla Nəsrəddin" məhz bu boşluğu doldurdu.

Jurnalın yaranmasının əsas səbəblərindən biri cəmiyyətdə hökm sürən savadsızlıq idi. Əhalinin böyük hissəsi oxuyub-yaza bilmirdi və bu da onların sosial və siyasi proseslərdən kənarda qalmasına səbəb olurdu. Bu vəziyyətdə klassik mətbuat vasitələri kifayət qədər effektiv deyildi. "Molla Nəsrəddin" isə sadə dil, yumor və karikaturalar vasitəsilə hətta savadı zəif olan insanlar üçün belə anlaşıqlı mesajlar ötürə bilirdi. Karikaturalar xüsusilə böyük rol oynayırdı; onlar sözsüz belə ictimai problemləri aydın şəkildə göstərirdi.

Digər mühüm səbəb cəmiyyətdə geniş yayılmış dini fanatizm və mövhumat idi. Jurnal bu məsələləri açıq şəkildə tənqid edir, dinin mahiyyətindən uzaqlaşdırılmış yanlış təsəvvürləri ifşa edirdi. Bu, o dövr üçün son dərəcə cəsarətli addım idi. "Molla Nəsrəddin" göstərirdi ki, geriliyin əsas səbəblərindən biri düşüncədəki qapanıqlıq və tənqidə dözümsüzlükdür. Buna görə də jurnal insanları daha açıq fikirli olmağa, elmə və təhsilə yönəlməyə çağırırdı.

Sosial ədalətsizlik də jurnalın yaranmasını şərtləndirən əsas amillərdən idi. Cəmiyyətdə varlı və kasıb təbəqə arasında böyük fərq mövcud idi, məmur özbaşınalığı, rüşvətxorluq və hüquqsuzluq geniş yayılmışdı. "Molla Nəsrəddin" bu problemləri satirik dillə ifşa edərək ictimai qınaq formalaşdırırdı. Jurnalın əsas gücü

də məhz buradan gəlirdi: o, qorxmadan həqiqəti deyirdi və bunu elə formada təqdim edirdi ki, oxucu həm gülür, həm də düşünürdü.

Jurnalın yaranmasının digər bir zərurəti isə milli şüurun formalaşdırılması idi. XX əsrin əvvəllərində Azərbaycan xalqı öz milli kimliyini daha dərindən dərk etməyə başlayırdı. Bu prosesdə mətbuat mühüm rol oynayırdı. "Molla Nəsrəddin" ana dilinin qorunmasına, milli dəyərlərin təbliğinə və xalqın özünüdərk prosesinə ciddi töhfə verdi. Jurnal milli birliyi gücləndirir, insanları ortaq problemlər ətrafında düşünməyə vadar edirdi.

Bu nəşrin ətrafında dövrün ən qabaqcıl ziyalıları toplaşmışdı. Onların arasında Mirzə Ələkbər Sabir xüsusi yer tutur. Sabirin satirik şeirləri jurnalın ideya xəttini daha da gücləndirir, cəmiyyətin nöqsanlarını kəskin şəkildə üzə çıxarırdı. Bu birlik "Molla Nəsrəddin"i təkcə jurnal deyil, bütöv bir ideoloji və ədəbi hərəkat səviyyəsinə yüksəltdi.

"Molla Nəsrəddin"in yaranmasının zəruriliyi həm də onun təsir dairəsində özünü göstərir. Jurnal təkcə Azərbaycanda deyil, bütün Qafqazda, İranda, Osmanlı imperiyasında və Orta Asiyada geniş yayılmışdı. Bu, onun nə qədər böyük ehtiyacdan doğduğunu sübut edir. O, yalnız mövcud problemləri göstərməklə kifayətlənmir, həm də cəmiyyətə çıxış yolu təklif edirdi: maariflənmək, düşünmək və dəyişmək.

Nəticə etibarilə, "Molla Nəsrəddin" jurnalının yaranması təsadüfi hadisə deyildi; o, dövrün sosial, siyasi və mədəni tələblərindən doğan tarixi zərurət idi. Bu jurnal cəmiyyətin aynasına çevrilərək onun bütün çatışmazlıqlarını üzə çıxardı və eyni zamanda inkişaf yolunu göstərdi. Onun əsas missiyası insanları oyatmaq, onları passiv müşahidəçidən fəal düşünən fərdlərə çevirmək idi. Bu baxımdan "Molla Nəsrəddin" yalnız bir mətbuat orqanı deyil, həm də milli oyanışın və ictimai tərəqqinin simvolu kimi tarixə düşmüşdür.

*II iştirakçı ""Molla Nəsrəddin" jurnalı" adlı çıxışına keçid alır.*

XX əsrin əvvəlləri Azərbaycanda təkcə neft və vüsətli tikinti ilə deyil, həm də 1905-1907-ci illərin inqilabi hadisələri fonunda milli hərəkatın yüksəlişi ilə əlamətdardır. Bu dövr Azərbaycan ədəbiyyatı üçün də zəngin və mürəkkəb dövrlərdən biridir. Tarixi şəraitin mürəkkəbliyi və çətinliyi Azərbaycan ziyalılarının milli mədəniyyəti inkişaf etdirmək əzmini daha da qüvvətləndirirdi. Dövrün ən maraqlı mətbu orqanı isə «Molla Nəsrəddin» jurnalı idi.

Həftədə bir dəfə Azərbaycan dilində çıxan bu jurnal bütün müsəlman dünyasında və Yaxın Şərqdə rəngli və şəkilli yeganə satirik nəşr idi. Hər nömrəsi 8 səhifədən ibarət olan jurnalda ictimai bəlaların tənqidinə və ifşasına, rəngli karikaturalara geniş

yer verilirdi. Jurnalı ərsəyə gətirənlər cəmiyyətdəki kəsirləri açıb göstərməklə, xalqın ictimai-siyasi şüurunu inkişaf etdirmək, onu dünyanın ən qabaqcıl və mədəni xalqları cərgəsinə qatmaq istəyirdilər.

«Molla Nəsrəddin» jurnalı 25 il ərzində müəyyən fasilələrlə Tiflisdə, Təbrizdə və Bakıda nəşr olunub. Onun Tiflis dövrü 1906-1918-ci illəri, Təbriz dövrü 1921-ci ili, Bakı dövrü isə 1922-1931-ci illəri əhatə edib. Jurnalın ilk nömrəsi 1906-cı il aprelin 7-də Tiflisdə "Qeyrət" mətbəəsində çıxıb. Onun təsisçisi, Mirzə Cəlil adı ilə tanınan istedadlı yazıçı və gözəl publisist Cəlil Məmmədquluzadə bu hadisənin əhəmiyyətini qiymətləndirərək yazırdı ki, «Molla Nəsrəddin» jurnalını təbiətin özü yaratdı.

Jurnalın birinci nömrəsinin üz qabağında verilən şəkildə möhkəm yuxuya getmiş bir dəstə müsəlman təsvir olunur. Şərqin müdrik ağsaqqalı Molla Nəsrəddin yatanların yanında durub onları oyatmaq istəyir. Bu karikaturanı Tiflisdə yaşayan alman rəssamı Oskar Şmerling çəkmişdi. İkinci səhifəsi "Sizi deyib gəlmişəm" məqaləsi ilə açılır. Sonrakı səhifələrində satirik xəbərlər, teleqramlar, atalar sözləri, "Dəllək" hekayəsi, "Lisan bəlası" felyetonu və dörd karikatura çap olunub.

O dövrün feodal–patriarxal mühitinə meydan oxuyan bu sözlər xalqın oyanışını istəməyən qüvvələri narahat etməyə başladı. Jurnalda zahirən ciddi təsir bağışlayan teleqramlar, atalar sözləri, hesab məsələləri də kinayəli ruhda - gah satirik, gah yumoristik tərzdə təqdim edilirdi. Buna görə də jurnal elə birinci nömrəsindən hücumlara məruz qaldı, bəzən bu səbəbdən, bəzən də maddi səbəblərə görə dəfələrlə öz fəaliyyətini dayandırmalı oldu.

O dövrün tanınmış yazıçısı Əbdürrəhim bəy Haqverdiyev öz xatirələrində yazırdı: "Bu nömrə şəhər əhalisi arasında bir bomba tək partladı. Bu jurnal gərək bir müsəlmanın evinə girməsin, onu nəinki oxumaq, ələ belə almaq haramdır: onu maşa ilə götürüb ayaqyoluna atmaq lazımdır".

«Molla Nəsrəddin» o dövrdə Türkiyə, Rusiya və İranda ən çox oxunan başqa nəşrlərdən fərqli olaraq kəmsavad oxuculara müraciət edirdi. Onun mətnləri çox sadə, karikaturaları isə dərhal başa düşülən idi. Karikaturalarda jurnalın çox vaxt təhsilin və dünyəvi cəmiyyətin düşmənləri adlandırdığı din xadimləri təsvir olunurdu. Bu karikaturalar dini dövlətlə dünyəvi dövlətin fərqini göstərir, şəxsi həyata və dünyəvi dövlətin həyatına dinin müdaxilə etməsinə qarşı çıxırdı. Onun gülüş və tənqid hədəfi çox idi: Şərq istibdadı, müsəlman ətaləti və geriliyi, avamlıq, maarifsizlik, təriqətçilik, müstəmləkəçilik və s.

Jurnalın əməkdaşları müxtəlif bədii formaların – satirik hekayələrin, felyetonların, şeir və məqalələrin köməyi ilə cəmiyyətin canına işləmiş bu

naqislikləri öldürücü gülüş hədəfinə çevirirdilər. Jurnalın səhifələrində güldürən xəbərlər, məktublar, elanlar, atalar sözləri, məsəllər, atmacalar geniş yer tuturdu.

«Molla Nəsrəddin» beynəlxalq hadisələrə münasibət bildirir, imperialist dövlətlərin müstəmləkəçilik siyasətini tənqid edir, Şərq xalqlarının azadlıq uğrunda mübarizəsinə rəvac verirdi. Jurnalın şöhrəti artaraq, konkret coğrafi məkan çərçivəsindən kənara çıxmış, Rusiya, Qafqaz və Orta Asiyanın hər yerinə yayılaraq türk və müsəlman xalqlarının ictimai-siyasi inkişafında əhəmiyyətli rol oynamış, habelə İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrin xalqlarının sosial-mədəni və siyasi tərəqqisinə böyük təsir göstərmişdi. Jurnalın redaktoru, böyük satirik və maarifçi C. Məmmədquluzadə qarşısına cəmiyyətin nöqsanlarını oxuculara göstərmək və onları yaxşı həyat uğrunda mübarizəyə təşviq etmək məqsədi qoymuşdu.

Sadə insanlar jurnalın hər nömrəsini səbirsizliklə və həyəcanla gözləyirdilər. Satira hədəfinə çevrilənlər isə onu nifrətlə qarşılayırdılar. Din xadimlərinin masqaraya qoyulması və qadın hüquqları uğrunda mübarizə şəksiz ki, riskli iş idi. Məsələn, Ordubadın din xadimləri C. Məmmədquluzadəni lənətləyən vərəqələr yayır, onu öldürməklə hədələyirdilər. Tiflisdə jurnalın redaksiyasında dəfələrlə axtarış aparılmış, hücumlar edilmişdi. C. Məmmədquluzadənin həyatı daim təhlükədə idi.

Jurnala Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı kimi görkəmli yazıçı və şairlər dəstəsi, Əzim Əzimzadə, Oskar Şmerlinq və İosif Rotter kimi rəssamlar cəlb olunmuşdu. Ömər Faiz Nemanzadə C. Məmmədquluzadənin ən yaxın köməkçisi və məsləkdaşı idi.

Jurnalın ilk nömrələrini onlar birlikdə hazırlamışdılar. Əslində, «Molla Nəsrəddin» Azərbaycanda ədəbi məktəb yaradan ilk mətbuat orqanı idi. Müəlliflər öz ideyalarını aydın şəkildə daha çox insana çatdırmaq üçün müxtəlif üsullardan istifadə edir, Azərbaycan dilində məzəli zarafatlar, felyetonlar, yumor və satira, lətifələr, söhbətlər və ləzzətli karikaturalar təqdim edirdilər. Mollanəsrəddinçilər ana dilinin şirinliyindən istifadə edərək Azərbaycan nəsri və poeziyasında yeni üslubun müəllifləri oldular. Jurnalın səhifələrində dərc edilmiş parlaq və cəsarətli əsərlər sonralar Azərbaycan bədii ədəbiyyatının və publisistikasının qızıl fonduna daxil oldu. Jurnal 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında, 1919-cu ildə Azərbaycan qadınlarına səsvermə hüququnun verilməsində də az rol oynamayıb. Yalnız Azərbaycan Milli Kitabxanasında bu jurnalın köhnə surətlərini vərəqləyərkən onun müəlliflərinin və rəssamlarının nə dərəcədə cəsarətli və istedadlı insanlar olduğunu başa düşürsən.

Jurnal 1931-ci ilə qədər fəaliyyət göstərdi. Yazıçı sovet dövründə də jurnala redaktorluq edir, yeni Azərbaycan əlifbasının tətbiqi istiqamətində fəal iş aparırdı. Amma «Molla Nəsrəddin» sovet hakimiyyəti illərində çox yaşamadı. 1930-cu illərin əvvəllərində hakimiyyət orqanları Mirzə Cəlildən tələb etdilər ki, sovet ideologiyasına uyğun gəlməsi üçün jurnalın adını dəyişdirib "Allahsız" qoysun. Jurnalın əvəzsiz redaktoru bolşevik senzurası ilə barışmadığı üçün tezliklə baş redaktor vəzifəsini tərk etdi.

Müsəlman Şərqinin mətbuat tarixində Azərbaycan dilində ilk satirik jurnalın əhəmiyyəti ölçüyəgəlməzdir. Onun fəaliyyəti bu qəbildən tam bir sıra nəşrin təsis edilməsinə təkan verdi. Beləcə, «Bəhlul», «Azərbaycan», «Mirat», «Babai-Əmir» və s. kimi jurnallar yarandı. «Molla Nəsrəddin» Azərbaycanda demokratik mətbuatın inkişafına böyük təsir göstərdi və çox qısa müddətdə təkcə Azərbaycanda deyil, həm də bütün Yaxın və Orta Şərq ölkələrində ən oxunan nəşrə çevrildi. Mövcud olduğu 25 il ərzində onun 800 nömrəsi işıq üzü gördü. "Molla Nəsrəddin" XXI əsrin insanını da ruhlandırmağa davam edir.

*III İştirakçı ""Molla Nəsrəddin" jurnalı Azərbaycanın milli mətbuatının ən gözəl nümunələrindən biridir".*

Bu jurnal ilk dəfə 1906-cı ildə, aprelin 7-də Tiflis şəhərində nəşr edilmişdir. Daha sonra isə, jurnalın fəaliyyət göstərdiyi 1922–1931- ci illər arasında isə, əsasən, Bakıda, nəşr edilmişdir. Jurnalın əsas məqsədi müasir dünyanın siyasi, iqtisadi, mədəni, sosial və dini problemlərinə dair müzakirələr apararaq, oxucularını düşündürmək və inkişafa təşviş etmək idi.

Jurnalın əsasını iki görkəmli şəxsiyyət qoymuşdur - Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadə.

Cəlil Məmmədquluzadə1905-ci ilin aprelində Tiflisdə "Şərqi-Rus" adlı günlük qəzetin nümayəndəsi olarkən, şeyxülislamın siyasi qərarlarına etiraz edən bir məqalə yazaraq, həbs edilir. Məhkəmə qərarı ilə onun həbsi 6 ay təxirə salınıb, o isə bu müddət ərzində bir jurnal yaratmaq fikrindən ilham alır.

Jurnal ilk zamanlarında çox səliqəli deyildi, lakin müəllif və müxbirlərin istedadı sayəsində qısa zamanda jurnalda təkmilləşmə və irəliləyiş baş verir. Jurnalın mövzuları arasında siyasi və sosial məsələlər, insan hüquqları, dindarlıq, mədəniyyət, cins ayrıseçkilik və s. kimi mövzular əsas yer tuturdu.

Ömər Faiq Nemanzadə "Molla Nəsrəddin" jurnalının yaradılmasında və müasir dövr Azərbaycan mizahının inkişafında əhəmiyyətli bir rol oynamış Azərbaycanlı yazıçı, tərcüməçi və mədəniyyət xadimi olmuşdur.

Ömər Faiq Nemanzadə Cəlil Məmmədquluzadə ilə tanış olaraq, "Molla Nəsrəddin" jurnalının müxbiri kimi onunla birgə çalışmağa başlamışdır. Jurnalda yazılar yazaraq, tərcümələr edərək və hətta məqalələrin müəllifi kimi fəaliyyət göstərərək, jurnalın yaradılmasında və inkişafında böyük təsir sahibi olmuşdur.

"Molla Nəsrəddin" jurnalının həm Azərbaycan, həm də bütün Qafqaz ərazisində böyük təsiri olmuşdur. Jurnal Cəlil Məmmədquluzadənin yaradıcılığı və müasir dövrdəki Azərbaycan mizah və satirasının banisi kimi ən qiymətli nümunələrdən biri olaraq qəbul edilir.

“Molla Nəsrəddin” jurnalı haqqında bilməli olduğumuz əsas faktları toplayaraq sizin diqqətinizə çatdırırıq.

Ömər Faiq Nemanzadənin əsərləri jurnalın mizahi tərəfini gücləndirmək üçün istifadə olunmuşdur. O, müxtəlif məqalələr, əsərlər, parodiyalar, tərcümələr və dəstək məktubları yazarak, jurnalın müxbiri və müəllifi Cəlil Məmmədquluzadənin baxış bucağını daha da gücləndirib, jurnalın təsir qabiliyyətini artırıb.

“Molla Nəsrəddin” jurnalının əsas qələbəsi isə, dini mövhumatın, müxtəlif qurumların özbaşına fəaliyyətlərinin, sosial bərabərsizliyin, siyasi və iqtisadi asılılığın qarşısının alınması yolunda zehni oyanışa güclü təkan verməsi idi. Bu jurnalın məqalələri əsl xalq dilində yazılırdı. Həm çox sevimli və təbii dil ilə, həm də ironiya, parodiya və mizah vasitəsi ilə yazılırdı.

Bu jurnalın ən böyük məramı insan hüquqlarının qorunması idi. Jurnalda dövrün insan hüquqları məsələləri, din və siyasi bəhanələrlə həyata keçirilən zülm və ədalətsizliklər, sosial bərabərlik məsələsindəki çətinliklər, köklü islahatlar və dəyişikliklər və s. mövzulara işıq tutulurdu.

"Molla Nəsrəddin" jurnalı, dövrün ən aktual problemlərini, milli və sosial problemləri qələmə alması ilə, bəzi məsələləri təbii bir dildə işləməsi ilə dövrün insanlarının sevgi və rəğbətini qazanmışdır. Həm də jurnalın əksər nəşrləri vaxtilə dünya mətbuatında da nəşr edilmişdir.

"Molla Nəsrəddin" jurnalı Azərbaycanın milli mətbuatının ən gözəl nümunələrindən biri olduğu üçün bütün dünyada da tanınan çox qiymətli bir inci kimi qəbul edilir. Jurnalın karikaturaları onun fikri gücünü daha da artırırdı.

"Molla Nəsrəddin" jurnalını oxuculara tanıtmaq və onun irsini davam etmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də *“Qaranlıqdan sabaha”* adlı **şeir müsabiqəsidir.** Tədbirdə deyilən şeirlər vaxtılə "Molla Nəsrəddin" jurnalında nəşr olunan şeir nümunələridir.

Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə şairin kitabları təqdim edilir. Şagirdlər müəyyən şeirlər seçərək iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır, münsiflər və qonaqlar öz yerini alırlar. İlk olaraq kitabxanaçı səhnəyə gələrək münsiflər və qonaqları salamlayır, iştirakçılara isə uğurlar arzulayır.

*İlk iştirakçı böyük şair Mirzə Ələkbər Sabirin "Oxutmuram, əl çəkin!" şeirini qiraətli şəkildə deməyə başlayır.*

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Gərçi bu bədbəxt özü elmə həvəskardır,
Kəsbi-kamal etməyə səyi dəxi vardır,
Məncə bu işlər bütün şiveyi-küffardır,
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəs ki, uşaqdır hələ, yaxşı-yaman sanmayır,
Elmin əbəs olduğun anlamayır, qanmayır,
Sair uşaqlar kimi hər sözə aldanmayır,
Eyləyir ömrün hədər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Eyləmərəm rəhm onun gözdən axan yaşına,
Baxsın özündən böyük öz qoçu qardaşına,
Ölsə də verməm rıza şapqa qoya başına,
Kafir ola bir nəfər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Uşaq mənimdir, baba, dəxli nədir sizlərə?
Kim sizi qəyyum edib hökm edəsiz bizlərə?
Yatmaram əsla belə dinə dəyər sözlərə!
Bir kərə qan, müxtəsər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Qoysanız öz oğlumu uydurum əhvalimə,
Sənətimi öyrədib mən salım öz halimə,
Dün bu oxutmaq sözün ərz elədim alimə,
Söylədi : "haza kəfər…", oxutmuram əl çəkin!

Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəsdi, cəhənnəm olun, bunca ki, aldatmısız,
İndi beş ildir tamam dinimə əl qatmısız,
Sevgili övladımı kafirə oxşatmısız,
Duydum işin sərbəsər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Satmaram öz əqlimi siz kimi laməzhəbə,
Razıyam oğlum gedə qəbrə, - nə ki məktəbə!
Məktəb adın çəkməyin, - mələbədir, mələbə!..
Əlhəzər, ondan həzər, oxutmuram əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəsdir o bildikləri, kaş onu da bilməsə!
Canıma olsun fəda bir də üzü gülməsə!
Ta ki, o zehnindəki fikrləri silməsə,
Sanma ola bəxtəvər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Fikrimi verməm əbəs siz kimi nadanlara,
Sövq edəsiz oğlumu bir para hədyanlara,
Çünki xəyanətçisiz cümlə müsəlmanlara,
Mənzilinizdir səqər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!

*İkinci iştirakçı Əli Nəzminin "Dil məsələsi" adlı şeirini deməyə başlayır.*

Dil var ikən, gəlin lisan deməyək,
Döndərib farscaya, zəban deməyək.
Hər kəsin var sözü, dili, ağızı,
Ağıza, and içək, dəhan deməyək.
Ərəbi göndərək öz evlərinə,
Farsa, qal bizdə mehman, deməyək.
Göz dururkən yazaq nə eyn, nə çeşm,
Gizlini gizlədib nəhan deməyək.
Var ikən türklərin oxu, yayı,
Kirpiyə tir, qaqşa kəman deməyək.

Ya günə ruz, ruzigar yelə,
Gecələr söyləyək, şəban deməyək.
Buğdaya kəndüm, arpaya dəxi co,
Əkməyə, suya ab, nan deməyək.
Şeir yazdıqda türkcəyi gözədək,
Mu tükə, ortaya miyan deməyək.
Birliyə ittihad, bilgiyə elm,
Qızlar, arvadlara zənan deməyək.
Dilçilər gülməsin bu təsfiyəyə,
Pozulub Kefsizin də başı, deyə.

*Üçüncü iştirakçı Əli Nəzminin "Küsmüşəm" adlı şeirini deməyə başlayır.*

Başına and olsun, ay Molla, cahandan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm.

Köç edib aləm təmamən yetdilər sərmənzilə,
Durmayır andırlara qalmış bizim bu qafilə.
Bir sürü çamuş təki dolmuş təmamən bir gölə,
Hərçi qışqırdım çıxan olmadı, ondan küsmüşəm,
İnciyib iyrənmişəm, bu karvandan küsmüşəm...

*Dördüncü iştirakçı böyük şair Mirzə Ələkbər Sabirin "Əkinçi" adlı şeirini qiraətli şəkildə deməyə başlayır.*

Məzlumluq edib başlama fəryadə, əkinçi!
Qoyma özünü tülkülüyə, adə, əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,
Ləğv olma, ədəb gözlə bu mə'vadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostanə, nə borcum?
Getdi mənə nə fə'ləliyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?
Yainki çəyirtkə yedi bostanını, neylim?
Verdin keçən il borcuna yorğanını, neylim?
Ol indi palas satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə, əkinçi!

Söz açma mənə çox çalışıb, az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən, deməyindən!
Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən!
Çəltik də gətir, arpa da, buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə, əkinçi!

Sən hey de yoxumdur, çıxarıb canını, allam!
Vallahi ovub dideyi-giryanını, allam!
Şallağə tutub peykəri-üryanını, allam!
Öz halını sal indi özün yadə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə, əkinçi!

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumuşaq zəhr nədir, marı yeyərsən,
Öyrəşməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!

Lakin mənim insanlıq olub vəz'i-mədarim,
Bəyzadəyəm, asayişədir cümlə qərarim,
Meysiz, məzəsiz bitməz olur şamü nəharim;
İştə belədir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə, əkinçi!..

*Beşinci iştirakçı böyük şair Mirzə Ələkbər Sabirin "Fəhlə, özünü sən də bir insanmı sanırsan?!"adlı şeirini qiraətli şəkildə deməyə başlayır*

Fəhlə, özünü sən də bir insanmı sanırsan?!
Pulsuz kişi, insanlığı asanmı sanırsan?!
İnsan olanın cahü cəlalı gərək olsun,
İnsan olanın dövləti, malı gərək olsun,
Hümmət demirım, evləri ali gərək olsun;

Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Hər məclisi-alidə soxulma tez arayə,
Sən dur ayaq üstə, demə bir söz üməraye,
Caiz deyil insanca danışmaq füqəraye,
Dövlətlilərin kəndini yeksanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Fəqr ilə ğina əhlinə kim verdi müsavat?
Mənadə də, surətdə də var buna münafət,
Öz fəzlini pulsuz edəməz kimsə isbat,
Bu mümtənəi qabili-imkanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Get vur çəkicin, işlə işin, çıxma zeyindən,
Məqsud müsavat isə ayrılma ceyindən,
Var nisbətin ərbabi-ğinayə nə şeyindən?
Bir abbasi gün mzdunu milyanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Dövlətliyik, əlbəttə, şərafətdə bizimdir,
Əmlak biizmdirsə, əyalətdə bizimdir,
Divan bizim, ərbabi hökümətdə bizimdir,
Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Asudə dolanmaqda ikən dövlətimizdən,
Azğınlıq edirsiz halədə nemətimizdən,
Böylə çıxacaqsınızmı bizim minnətimizdən?!
Ehsanımızın şükrünü küfranmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Heç bir utanırsan?!
Ya bir usanırsan?!
Əlminnətü-lillah,
Odlara yanırsan!

Bununla yanaşı kitabxanada doğan "Molla Nəsrəddin" jurnalının 120 illik yubileyi əlaqədar bir sıra tədbirlər keçirilə bilər. Bunlardan biri də *"Şərqin İlk Böyük Satirik Tribunası"* adlı **səhnəcikdir.** Bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O, şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə şairin əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər mövzuya uyğun biliklər əldə edir. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə bir sıra hekayələri səhnələşdirə bilər. Məsələn: şairin sevilən əsərlərindən biri olan *"Molla Nəsrəddin azarlayıb"* adlı lətifəsi əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik:

Öncə səhnə əsərə uyğun olaraq, dekorasiya hazırlanır. İştirakçılar canlandırdıqları obrazlara uyğun paltarlar geyinirlər. Aparıcı səhnəyə yaxınlaşaraq poemadan bir hissə deməyə başlayır:

**I iştirakçı:** Günlərin birində, Molla bərk azarlayır. Qonum-qonşu, qohum-qardaş, eşidən-bilən, tanış-biliş, oğul-uşaq yıgışıb gəlirlər Mollanı yoxlamağa. Ev dolur adamla. Bəli, hərə bir tərəfdə əyləşir. Di o yandan, bu yandan söhbət başlanır. Çənələr o qədər qızışır ki, Molla tamam yaddan çıxır. Axırda Molla yorğan-döşəkdən qalxıb əyləşir, hıqqıldaya-hıqqıldaya deyir:

**II iştirakçı:** — Başınıza dönüm, daha mən sağaldım. Durun gedin evinizə, inşallah, ikinci dəfə azarlayanda gəlib söhbətinizin dalını davam elətdirərsiniz.

*Bundan sonra "Molla Nəsrəddin" jurnalında nəşr olunan bir neçə ayrı adda hekayələr, felyetobn və lətifələr səhnələşdirilir.*

***"Qurbanəli bəy" - Müəllif: Cəlil Məmmədquluzadə***

Xəbər çıxdı ki, bu gün naçalnik gəlir kəndə və sonra məlum oldu ki, pristavın arvadının ad qoyulan günüdür.

Kənddə şuriş düşdü. Kənd əhlindən bu gün çöl işinə gedən olmadı. Camaatın yarısı çıxmışdı kəndin kənarına və təpələrə dırmaşıb boylanırdılar ki, görsünlər gəlirmi naçalnik. Camaatın yarısı pristavın mənzilini əhatə edib durmuşdular. Qıraq kəndlərdən də camaat baxəbər olub yavaş-yavaş gəlirdilər.

Pristavın həyətinə adam əlindən girmək mümkün deyildi və katda, yasovul və qlava mirzələrindən savayı həyətə girmək heç kəsə izn verilmirdi.

Pristavın həyətində it yiyəsini tanımırdı. Səsdən və qiylü-qaldan qulaq tutulurdu: bir yanda quzular mələyirdi, bir yanda qıçları bağlı cücə və toyuqlar bağırırdılar, bir yanda qlavaların atları kişnəyirdilər. Bir tərəfdən pristavın qulaqları uzun tulaları gah qlavanm üstünə atılıb "haff' eləyirdilər, gah katdanm üstünə tullanıb "haff' eləyirdilər. Hərdən bir pristavın arvadı balkona çıxıb nazik səslə çığırırdı: "tişe"; yəni "yavaş". Və sonra genə girirdi içəri.

Pristavın aşpazları, bellərində ağ önlük hərdənbir həyətə çıxıb qlavanın birinə deyirdi:
- Tez yarım girvənkə zəfəran tap.
Qlava "baş üstə" deyib, əvvəl bir başını salırdı aşağı, sonra mirzəsinə üzünü tutub buyururdu:
- Ada, Mirzə Həsən, durma tez şəhərə adam göndər, yarım girvənkə zəfəran gətirsin.
Bir az keçirdi, bir ayrı aşpaz əlində katlet bıçağı qlavanın birinə üzünü tutub buyururdu:
- Qlava, dörd-beş yüz yumurta lazımdır.
Qlava sevincək əlini uzadırdı həyətdəki səbətlərə və cavab verirdi:
- Nə danışırsan? Burada mindən artıq yumurta var.
Birdən qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavalar çıxdılar qapıya, xanım çıxdı balkona, tulalar hücum çəkdilər adamların üstünə və bir qədər keçdi guya qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, özgə mahalın pristavı imiş. Pristav atdan yenib girdi həyətə və balkona çıxıb xanıma rusca bir neçə söz deyib özü də güldü və xanımı da güldürdü. Və sonra hər ikisi girdi içəri.
Genə katlet bıçaqlarının taqqıltısı, adamların tappıltısı, atların kişnəməsi, cücə-toyuqların və qlavaların bağırtısı və tulaların hafıltısı qarışdı bir-birinə. Bir ucdan təzə gələn qlava və katdalar atdan yenib, dolu xurcunları doldururdular həyətə. Bir ucdan kəndlilər dallarında qab-qazan, xalı və palaz daşıyırdılar. Bir ucdan kəndlilər həyətin di-bində quzulan və toyuq-cücələri yan-yana yığıb öldürüb təmizləyirdilər.
Birdən qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavalar qaçdılar qapıya, xanım və qonaq çıxdılar balkona, tulalar tullandılar həyətə və bir qədər keçdi genə qurbağanın gölünə daş atdılar; çünki bu gələn naçalnik deyilmiş, kazak böyüyü bir əfsər imiş. Bu da atdan yendi, qaça-qaça çıxdı balkona və xanımın əlini öpüb, kefini soruşdu və sonra girdilər otağa.
Bir qədər keçdi genə qaçaqaç düşdü; genə dedilər "naçalnik gəlir". Amma bu da yalan oldu. Adamları araladılar, bu qonaq da girdi həyətə. Bu da "Qapazlı" kəndinin bəyi və mülkədarı məşhur Qurbanəli bəy idi.
Bəy həyətə girən kimi baxdı bir sağa, bir sola. Tulaların biri qaçıb gəldi Qurbanəli bəyin qabağına və başladı bəyin ayaqlarını yalamağa. Bəy əyilib itin başını tumarladı və dedi:
- Malades sobak, - və sonra qalxıb xanımı balkonda görüb çığırdı:
- İzdrasti! - və börkünü götürüb sağ əlilə qalxızdı yuxarı və qışqırdı:
- Urra! - Sonra qalxdı balkona və xanıma baş əydi. Xanım əlini uzatdı Qurbanəliyə. Bəy xanımın əlini alıb rusca dedi:

- Nə qədər mənim canım sağdı, sənə mən nökərəm, ay xanım. Xanım bir az güldü və dedi:
- Spasibo.
Bəy bir ah çəkəndən sonra hər ikisi girdi içəri.
Bir az keçdi, mahal həkimi gəldi, sud pristavı gəldi, iki uçitel gəldi, genə bir əfsər* arvadı ilə gəldi, genə bir özgə həkim arvadı ilə gəldi.
Bir az keçdi genə qaçaqaç düşdü; dedilər "naçalnik gəlir". Qlavaların biri at üstə çaparaq gəlib özünü saldı yerə və həyətə soxulub qaçdı xanımm qabağına və çığırdı:
- Naçalnik idyot.
Xanım bir girdi içəri, bir çıxdı balkona. Qonaqlar da çıxdılar həyətə və qaçdılar qapıya. Tappıltı, şaqqıltı və çığır-bağır, qoyma, dinmə, çəkil, gəl, get... axırda bir yoğun çinovnik girdi həyətə, yeridi xanıma tərəf, sol əli ilə börkünü çıxardıb sağ əlini uzatdı xanıma və xanımm əlini öpüb qonaqlarla bir-bir əl-ələ verib qalxdı balkona və girdi otağa.
Naçalnikdən sonra genə bir neçə qonaq gəldi. Bunların da bır neçəsi arvadları ilə gəlmişdilər.
Qonaqlar yığışmışdılar zal otağına. Ortaya düzülmüşdü stollar və stollarırın üstünə düzülmüşdü növ-növ şirin çörəklər, suxarılar, paxlavalar, halvalar, kanfetlər, lumu-partaxallar, quru yemişlər. Stolun üstünə qoyulmuşdu yekə samavar və qulluqçular çay töküb qoyurdular qonaqların qabağına.
Naçalnik oturmuşdu yumşaq divanın üstündə, pristavın arvadı oturmuşdu onun yanında, qonaqlardan da bir neçəsi düzülmüşdü bunların yanına və naçalnik qabağındakı stekanın qendini qanşdıra-qarışdıra pristavın arvadı ilə söhbət edirdi.
Bu heyndə küçədən açıq akoşkalardan bir at kişnəməsi qalxdı. Bundan sonra bir ayrı at daha da ucadan başladı kişnəməyə. Qonaqların bir neçəsi akoşkadan baxdılar küçəyə. Atlar daha da ucadan başladılar kişnəməyə. Qurbanəli bəy akoşkadan başını çıxartdı küçəyə və çığırdı:
- Ədə Kəblə Qasım, heyvan oğlu heyvan, atı kənarda dolandır, yoxsa əlindən qurtarıb qaçar.
Bir az keçdi, atlar daha da şiddətlə başladılar çığırmağa. Qurbanəli bəy atlardan bərk başladı nökərinə çığırmağa və qonaqların hamısı qaçdılar akoşkaların qabağına.
Küçədə tövlənin qabağında bir strajnik bir ağ atın cilovundan yapışıb dolandırırdı. Bu at naçalnikin atı idi.

Qurbanəli bəyin nökəri bir kəhər atın cilovundan yapışıb bir az kənarda dolandırırdı. Bir-iki kəndli də bir az kənarda bir ayrı atların cilovlarından yapışıb dolandırırdılar. Akoşkanın qabağında kəndlilər düzülüb pristavın akoşkalarına baxırdılar.
Hərdən bir naçalnikin atı kişnəyə-kişnəyə qabaq ayaqlarını döyür yerə və Qurbanəli bəyin atına baxıb, hirsindən cilovu gəmirtləyirdi. Qurbanəli bəyin atı hərdənbir nərə

təpib, qabaq ayaqlarını qaldırırdı havaya və az qalırdı ki, Kərbəlayı Qasımı da göyə qaldırsın. Kərbəlayı Qasım da bərk-bərk cilovdan yapışıb çığırırdı:
- Buna bax ha!
Naçalnik gördü ki, kəhər at Qurbanəli bəyin atıdır və üzünü Qurbanəli bəyə tutub soruşdu ki, atı neçə yaşındadır? - Qurbanəli bəy papirosunu yandırıb naçalnikə dedi ki, atı bu il təzə dörd yaşa ayaq yur.
Genə naçalnik akoşkaya tərəf yeriyib, başladı Qurbanəli bəyin atına tamaşa eləməyə; sonra Qurbanəli bəyə'çönüb dedi: - Nə gözəl atdı!
Doğrudan, Qurbanəli bəyin atı gözəl at idi.
Qurbanəli bəy hər iki əlini sinəsinə qoyub naçalnikə cavab verdi:
- Peşkəşdi.
Naçalnik Qurbanəli bəyə dedi:
- Sağ ol - və genə başladı ata tamaşa eləməyə və genə Qurbanəli bəyə üzünü tutub soruşdu:
- Qaçmağı necədi? İti yüyürürmü? Qurbanəli bəy naçalnikə dedi:
- Ay naçalnik, əgər sənin mahalında bir belə yüyürən at tapılsa, mən bığlarımı qırxdırmasam qurumsağam.
Yarım saatdan sonra qonaqları çağırdılar xörək otağına. Otağın ortasında uzun xörək stolu, üstünə düzülmüşdü hər cür xörəklər və içkilər.
Pristavın arvadı oturdu stolun baş tərəfində. Xanımın sağ tərəfində naçalnik əyləşdi və qeyri qonaqlar da hərə bir yer tutub oturdular.
Naçalnik araq şüşəsini əlinə götürüb əvvəl öz fincanını, sonra pristavın arvadının, sonra xanımların və sonra qeyri qonaqların fincanlarını doldurub durdu ayağa və rumkasını xanımın rumkasına vurub dedi:
- Mübarək olsun xanımın ad bayramı.
Naçalnikdən sonra xanımlar və ağalar yerlərindən qalxıb həmin sözləri dedilər və sonra naçalnik və qeyriləri şüşələri başlarına çəkib boşaltdılar.

Pristavın arvadı fincanı götürdü əlinə, qonaqlardan razılıq elədi, amma Qurbanəli bəyə baxıb gördü ki, bəy arağını hələ içməyib. Xanım bəydən soruşdu ki:
- Niyə içmirsiniz?
Bəy gülə-gülə başını saldı aşağa və dinmədi. Naçalnik Qurbanəli bəyə baxıb qəh-qəh çəkib dedi ki:
- Yoxsa sən də fanatik müsəlmanlardansan, onun üçün içmirsən? Qonaqlardan bir neçəsi güldü və bir neçəsi də dedi ki:
- Götür iç!..
Axırda Qurbanəli bəy rumkasmı götürdü əlinə və dedi:
- A kişi, siz Allah bu nədi? Buna bizdə üskük deyərlər ki, arvadlar barmaqlarına geyib tikiş tikərlər; yoxsa bizlərdə bunnan araq içməzlər.

Qonaqlar bu sözləri eşidib genə qəh-qəh çəkib güldülər və pristavın xanımı dedi:
- Da, da, doğrudur. Gunah məndədir. Qurbanəli bəy rumkaynan araq içməz.
Bu sözləri deyəndən sonra xanım bir çay stəkanı aparıb qoydu bəyin qabağına və araqla doldurub verdi bəyə. Qurbanəli bəy stəkanı götürüb dedi:
- Bax, buna nə demişəm?!.. Yoxsa üsküyü qoyublar mənim qabağıma ki, nə var, nə yox.
Qonaqlar genə gülüşdülər və Qurbanəli bəy arağı çəkdi başına, stəkanı qoydu yerə və çörəkdən bir tikə götürüb tutdu burnunun qabağına.
Ağalar və xanımlar məşğul oldular yeməyə, içməyə və eşikdə də toy və zurnanın səsi ucaldı. İki saatdan sonra qonaqlar qalxdılar ayağa, düzüldülər akoşkanın qabağına və başladılar tamaşa eləməyə.
Baharın ikinci ayı idi. Çiçəklərin və otların ətri qarışmışdı bir-birinə, çeşmələrin səsi qarışmışdı quşların səsinə. Hərdən bir zurnanın səsi ucalıb, özgə səslərin hamısını batil eləyirdi. Zurna sakit olan kimi adamların səsi ucalırdı. Evin qabağında, çayın kənarında, çəmənin üstündə bir neçə fərş döşənmişdi. Bir tərəfdə üç yekə samavar qoyulmuşdu və yanlarında otuz-qırx stəkan-nəlbəki, nimçələr, qəndlər, mürəbbələr, şirin çörəklər, lumu-partaxallar, kanfetlər, qurabiyələr və qeyri çay ilə və çaysız yeməli şeylər, yağlar, xamalar, qaymaqlar, quru yemişlər düzülmüşdü. Ətrafdan qoyulmuşdu yasdıq və balışlar. Bir tərəfdə qlavalar tatarı əllərində kəndliləri döyə-döyə bir yerə yığırdılar ki, əl-ələ verib yallı getsinlər.

Ağalar və xanımlar akoşkalarda görünən kimi kəndlilər "urra" de-yib papaqlarını atdılar göyə və yapışdılar yallı getməyə. Pristavın xanımı qonaqlara təklif elədi ki, buyursunlar, çayın kənarında başladılar yallı getməyə.
Ağalar və xanımlar yendilər. Kəndlilər genə "urra" çəkib qarışdılar bir-birinə və sonra genə başladılar yallı getməyə.
Qurbanəli bəyin nökəri Kərbəlayı Qasım kənarda durub, əllərini qoymuşdu ciblərinə, baxırdı və Qurbanəli bəyi görcək ikiqat əyildi.
Bəy papirosunu ağzına alıb Kərbəlayı Qasıma işarə elədi. Kərbəlayı Qasım qaçıb gəldi ağasının yanına və spiçkanı cibindən çıxarıb yandırdı və tutdu ağasının qabağına. Bəy papirosu yandırıb dedi:
- Axmaq oğlu, axmaq, bə sən niyə yallı getmirsən? Kərbəlayı Qasım başını əydi aşağı və dedi:
- Ay ağa, mən qocalmışam. Daha mənə yallı getmək yaraşmaz. Bəy papirosunu göyə üfləyib yapışdı Kərbəlayı Qasımm çiynindən və çəkə-çəkə apardı yallı gedənlərin yanına və dedi:
- Yapış, heyvan balası, heyvan! Yoxsa vallah döyə-döyə səni öldürərəm!
Kərbəlayı Qasım yapışdı kəndlilərin əlindən və istər-istəməz başladı onlarla bir yerdə dolanmağa. Qurbanəli bəy özü də dəstənin başından yapışıb başladı atılıb

düşməyə. Pristavın arvadı Qurbanəli bəyə çəpik çaldı. Naçalnik də qəh-qəh çəkib güldü və başladı çəpik çalmağa. Özgə qonaqlar da çəpiyi tutub başladılar gülməyə. Qurbanəli bəy özü ağzını göyə açıb qəh-qəh elədi və çığırdı:
- Ay xanım, mən istəyirəm sənin sağlığına içim. Buyur mənə çaxır gətirsinlər. Urra, urra!
Nökərlər butulkaları başladılar daşımağa. Qurbanəli bəy bir stəkan içib genə başladı fırlanmağa, genə başladı dolanmağa. Bir qədər keçdi, genə bir stəkan içib çığırdı:
- Xanımın sağlığına - və genə başladı dolanmağa bir qədər keçəndən sonra yorulub çəkildi kənara və bir stəkan çaxır doldurub nökəri Kərbəlayı Qasımı çağırıb və dedi:
- İç.
Kərbəlayı Qasım başladı yalvarmağa:
- Ay ağa, sən bilirsən ki, mən içmənəm. Aman günüdü, məni çövür balovun başına, mən içə bilmənəm.
Bəy bir qədər də nökərini yaxalayıb gördü ki, içmir və çaxırın bir azını tökdü Kərbəlayı Qasımın üstünə və bir azını da özü içdi.
Ağalar və xanımlar məşğul oldular çay içməyə. Qurbanəli bəy də gedib bir tərəfdə oturdu və üzünü naçalnikə tutub dedi:
- Mənim nökərim Kərbəlayı Qasım lap biqeyrətdi. Mən indiyə ki-mi nə qədər eləmişəm ona bir qətrə çaxır içirdə bilməmişəm. Deyirəm ki, axı, ay axmaq, sən ki, üzümü yeyirsən, axı bu nədi ki? Üzüm suyu deyil məgər? Nə qədər eləyirəm, içmir.
Naçalnik Qurbanəli bəyə cavab verdi ki, Kərbəlayı Qasım qanmır, avamdı. Qurbanəli bəy qəh-qəh çəkdi və dedi:
- Necə qanmır? Çox yaxşı qanır. O məgər qanmır ki, çaxır üzümdən qayrılır? Çox əcəb qanır. Ancaq biqeyrətdi, onun üçün içmir.
Yarım saata kimi ağalar və xanımlar çay içməyə və söhbətə məşğul oldular. Kəndlilər də yallı gedirdilər. Xanımlarm biri hərdənbir əllərini basırdı qulaqlarına və ərinə şikayət edirdi ki, "zurnanın səsindən az qalır qulaqlarım tutulsun". Pristav xanımın gileyini başa düşəndən sonra toyçulara çığırdı ki, daha çalmasınlar. Toyçular sakit oldular.
Toyum səsi kəsilcək Qurbanəli bəy üzünü toyçulara çöndərib çığırdı.
- Ədə, çalm, namərdlər!
Pristav bəyə dedi ki, toyun səsi xanımlara xoş gəlmir, qoy çalmasınlar. Qurbanəli bəy durdu ayağa, pristava dedi:
- Mən ölüm qoy çalsınlar, mən istəyirəm oynayam. Pristavın cavabını gözləməyib Qurbanəli bəy toyçulara çığırdı:
- Ədə, çalın! "Uzun dərə" çalın
Toyçular hazırlaşırdılar çalmağa. Naçalnik durdu ayağa və börkünü başına qoyub bəyə dedi:

- Bəy, hələ sonra oynarsan. Göndər nökərini sizin atınızı çəkib gətirsin, mən istəyirəm ata baxam.
Qurbanəli bəy sağ əlini qoydu gözünün üstünə və dedi:
- Naçalnik, qurbandı sənə mənim atım! Bu sözlərdən sonra bəy nökərini çağırdı:
- Kərbəlayı Qasım, tez get atı çək gətir, naçalnik baxsın. Kərbəlayı Qasım qaçdı və tövlədən atı çıxartdı eşiyə. Naçalnik, pristav, Qurbanəli bəy, pristavların biri və xanımların biri getdilər atın yanına. Qurbanəli bəy ata yavıqlaşıb başladı atın alnını tumarlamağa. Naçalnik keçdi atın dalına, sonra keçdi qabağına və istədi ağzını açıb dişlərinə baxsın. Aл başını göyə qalxızıb çəkildi bir tərəfə.. Qurbanəli bəy çığırdı ata:
- Tərpənmə, axmaq!
Naçalnik genə çəkildi atın dal tərəfinə. Qurbanəli bəy yapışdı atın dodağından və ağzının bir tərəfini açdı və naçalnikə dedi:
- Naçalnik, buyur bax. Həyə inanmırsan, buyur bax bu il dördünə ayaq qoyur.
Naçalnik yavığa gəlib əyildi və başını uzatdı atın ağzına. At genə başını qovzadı göyə. Qurbanəli bəy hirslənib istədi atın ağzından bir yumruq vursun. At qabaq əllərini qaldırdı göyə və az qaldı noxtanı Kərbəlayı Qasımın əlindən qoparsın. Kərbəlayı Qasım asıldı noxtadan və çığırdı:
Buna bax, ha!
Sonra naçalnik Kərbəlayı Qasıma dedi ki, bir az atı dolandırsın. Kərbəlayı Qasım atı yavaş-yavaş çəkdi bir tərəfə. Heyvan Kərbəlayı Qasımın dalınca gedə-gedə hərdən alnını sürtürdü Kərbəlayı Qasımın kürəyinə və hərdənbir o tərəfə-bu tərəfə baxıb kişnəyirdi.
Naçalnik Qurbanəli bəydən yenə atın qaçmağını soruşdu. Qurbanəli bəy baxdı naçalnikin üzünə və bir söz deməyib Kərbəlayı Qasımı çağırdı. Kərbəlayı Qasım atı çəkdi yavığa və Qurbanəli bəy tez qalxdı atın üstünə və heyvanı təpiklədi. At durduğu yerdə bir neçə arşın fasiləni sıçrayıb, üz qoydu yola tərəf qaçmağa və yarım dəqiqənin içində gözdən itdi. Yarım dəqiqədən sonra Qurbanəli bəy çaparaq qayıdıb gəldi və atı sürüb az qaldı soxulsun qonaqlar oturduğu məclisə. Xanımlar çığırışıb qaçışdılar bir tərəfə və Qurbanəli bəy tez atı saxlayıb özünü tulladı yerə və durdu naçalnikin qabağında. Naçalnik bəyə dedi:
- Moladets - və bəy cavab verdi:
- Naçalnik, bu nədi ki! Hələ sən mənim o biri atımı görməmisən. Bəlkə onu görəsən! Bu nədi ki, onun yanında.
Kərbəlayı Qasım atı çəkib apardı.
Hava qaraldıqdan sonra pristavın otaqlarında çıraqları yandırdılar və qonaqlar məşğul oldular kart oynamağa. Saat on birdə qonaqları genə dəvət elədilər xörək otağına və genə ağalar və xanımlar xörək stolunun ətrafına düzülüb başladılar şam eləməyə. Naçalnik cücənin ətindən bir-iki tikə yeyəndən sonra götürdü çaxır

butulkasını və başladı əvvəl öz stəkanını, sonra qonşularının stəkanını doldurmağa və sonra ayağa durub stəkanı uzatdı pristavın arvadına tərəf və dedi:
- Bu gün bizim buraya yığışıb belə ləzzətlə vaxt keçirməyimizə siz səbəb olubsunuz. Buna cəhət mən bu stəkanı içirəm sizin sağlığınıza.
Bu sözləri deyib, naçalnik stəkanı vurdu xanımın stəkanına və çaxırı içib oturdu. Yavuqda oturan qonaqlar da stəkanlarını uzadıb xanımın stəkanı ilə çıqqıldatdılar və içdilər. Qurbanəli bəy də yerindən qalxıb, dolu stəkanını götürüb vurdu xanımın stəkanına və xanımın başının üstündə durub dedi:
- Mən özümü bu gün xoşbəxt hesab eləyirəm ki, bu məclisdə varam. Allah sənin ərin Mixail Pavloviçi bizim mahaldan uzaq eləməsin. Ondan ötrü ki, çünki nə qədər ki, Mixail Pavloviç bizim mahalda deyildi, bizim kəndlilər də bədbəxt idilər, mən də bədbəxt idim. Ondan ötrü ki, bilmirəm nədəndirsə keçən pristavları mən o qədər istəməzdim ki, Mixail Pavloviçi istəyirəm. Amma beş-on il bundan irəli burda bir pristav vardı; çox lotu oğlan idi. Mənə bir tula bağışlamışdı. Allah onu da sağ eləsin, səni də sağ eləsin, hamımızı sağ eləsin. İçirəm mən sənin sağlığına, a xanım,urra!
Bu sözləri deyəndən sonra Qurbanəli bəy çaxırı çəkdi başına və içəndən sonra stəkanı çöndərib ağzı yerə tərəf tutdu ki, görsünlər stəkanda bir qətrə də çaxır qalmayıb və keçib oturdu yerində. Bir qədər keçəndən sonra pristavın arvadı götürdü çaxırı və naçalnikin stəkanını, öz fincanını və qonşularının stəkanlarını doldurub üzünü naçalnikə tutdu və dedi:
- Mən özümü borclu hesab edirəm sizdən razılıq eləməyə ki, bu uzun yolu zəhmətlə buraya gəlib məni sərəfraz buyurubsunuz.
Sözlərini deyəndən sonra xanım fincanını tutdu dodaqlarının qabağına. Qonaqlar da stəkanlarını uzadıb vurdular naçalnikin stəkanına. Qurbanəli bəy yerindən qalxıb, əlində dolu stəkan gəlib durdu naçalnikin yanında və dedi:
- Naçalnik ağa, içirəm mən bu stəkanı sizin sağlığınıza. Allah da buna şahiddir ki, nə qədər bizim vilayətə naçalniklər gəlib - gedib, mən onların heç birini o qədər istəməmişəm. Naçalnik ağa, sən bizim başımızın sahibisən. Nə qədər ki, bizim mahalda camaat var, onlar hamısı sənin yolunda başlarından keçərlər. Mən özüm sənin yolunda oda girərəm. Qurban sənə mənim canım. Nə qədər ki, mən sağam nökərəm sənə. İçirəm mən bu stəkanı naçalnik ağanın sağlığına. Urra!
Bu sözləri deyən kimi Qurbanəli bəy stəkanı çəkdi başına, stəkanın ağzını çöndərdi yerə, guya bir qətrə də qalmadı; sonra gedib oturdu yerində. Qonaqlar genə məşğul oldular yeməyə.
Bir qədər keçəndən sonra xanımın əri pristav götürdü çaxır şüşəsini, əvvəl öz stəkanını doldurdu, sonra qonşularının stəkanını doldurdu və sonra ayağa durub dedi:
- Ağalar və xanımlar! Məlumdur ki, bir düşmən istəyə bizim üstümüzə hücum çəkə, bizi saxlayan qoşunlarımız olacaq. Buna cəhət mən içirəm bu stəkanı bizim

qoşunlanmızın əfsəri Nikolay Vasilyeviçin və onun xanımı Anna İvanovnanın sağlığına.
Pristav bu sözləri deyib stəkanı uzatdı bir əfsərə və onun yanında oturan arvada tərəf. Qonaqlar da habelə stəkanlarını çıqqıldadıb içdilər. Qurbanəli bəy də ayağa durub dolu stəkanını uzatdı əfsərə və arvadına tərəf dedi:
- Ay əfsər ağa, ay xanım, mən içirəm sizin sağlığınıza. Allah sizin kölgənizi bizim başımızın üstündən əskik eləməsin. Allah düşmən qabağında sizin qılıncınızı kəskin eləsin. Yəni mən bu sözləri ondan ötrü demirəm ki, düşməndən qorxuram. Hansı düşmən cürət eləyib mənim qabağıma çıxa bilər?! Bu xəncəli mən soxaram onun qarnına! Mən heç düşməndən qorxmuram. Sizin dövlətinizdən mən heç bir kəsdən qorxmuram. Nə qədər canım sağdır, mən nökərəm sənin xanımına. Sağ olsun Anna xanım, urra!
Bəy çaxırı çəkdi başına.
Bu qayda ilə ağaların və xanımların bir-bir sağlığına içdilər. Hər dəfə Qurbanəli bəy dururdu ayağa, hərənin barəsində bir nitq söyləyir, bir dolu stəkan içirdi və otururdu. Yavaş-yavaş çaxırın buxan qalxdı bəyin başına və lap axırda bəy bərk kefləndi.
Qonaqların hamısının sağlığına içəndən sonra qonaqlar başladılar Qurbanəli bəyin sağlığına içməyə. Xanımlar bir-bir stəkanlarını uzadıb vurdular bəyin stəkanına. Qurbanəli bəy şadlığından az qaldı özündən getsin. Qonaqların hamısı bəyin sağlığına içəndən sonra bəy stəkanı yuxan qalxızıb dedi:
- Ağalar və xanımlar! Siz ki, mənim sağlığıma içdiniz, qurban olsun sizə mənim canım. Mən ölənə kimi bu günü yadımdan çıxarmanam. Amma, ağalar, mənim sizdən bir xahişim var. Mən ölüm, mənim sözümü yerə salmayın. Mən sizin hamınızı sabah öz evimə qonaq təklif eləyirəm. Vallah, billah, atamın goru haqqı, mən bilmirəm necə sizin xəcalətinizdən çıxım?! Mən lap əriyib yerə girirəm ki, bu qədər xanım mənim sağlığıma içsin. Mən nəyəm ki, bu qədər xanım mənim sağlığıma içsin? Mən bu xanımların ayağınm torpağı da ola bilmənəm. Vallah, billah, atamın goru haqqı sabah bizə qonaq gəlməsəniz, mən özümü öldürərəm. Mən istəyirəm sizə qulluq eləyim. Mən istəyirəm sizə nökərçilik eləyim. Sabah bizə gəlməsəniz, mən bu xəncəli soxaram qarnıma. Cənab naçalnik, səndən də çox təvəqqə eləyirəm, ay xanım, səndən də təvəqqə eləyirəm. Əfsər ağadan da eləyirəm. Anna İvanovna, qurban olsun sənə mənim canım, səndən də təvəqqə eləyirəm. Ağalar, xanımlar! Hamınızdan təvəqqə eləyirəm. Hər kəs gəlməsə, namərddi. Aman günüdü, özümü öldürərəm! Qurban olsun sizə mənim canım. Sağ olsun xanımlar. Urra! Urra!
Bəy stəkanı çəkdi başına. Naçalnik siğarı damağına salıb, üzünü tutdu pristavın xanımına və dedi:
- Gələsən sabah qonaqlığa gedək, Qurbanəli bəyə qonaq olaq? - Xanım baxdı ərinin üzünə və dedi:

- Mən çox xoşhallıqla gedərəm. Yaxşı olar. Bəyin arvadını da görərəm. Görərəm necə paltar geyir.

Əfsər də arvadından soruşdu:
- Gedərsənmi? - Arvadı dedi:
- Gedərəm.
Qonaqların biri də dedi ki:
- Əgər bəy bizə bir yaxşı müsəlman plovu versə, gedərəm. Qurbanəli bəy plov sözünü eşitcək tez qalxdı ayağa və çığırdı:
- Necə plov? Necə plov? Atamın goru haqqı, sizə elə bir plov verərəm ki, ömrünüzdə yeməmiş olarsınız. Mənim aşpazım bişirən plovu kim bişirə bilər? İnanmırsınızsa Kəblə Qasımdan soruşunuz. Hanı Kəblə Qasım? Kəblə Qasım, Kəblə Qasım!
Qurbanəli bəy başladı ucadan Kərbəlayı Qasımı çağırmağa; guya ki, Kərbəlayı Qasım buradadır. Pristavın nökərlərindən biri içəri girib dedi ki, burada Kərbəlayı Qasım yoxdur. Bəy hirslənib nökərə dedi ki:
- Çağırın o axmaq oğlunu gəlsin.
Nökər çıxdı getdi və bəy özü də qapıya tərəf yeridi. Pristavın arvadı bəyə dedi ki:
- Sən zəhmət çəkmə, nökərlər çağırarlar gələr. Bəy genə başladı plovu tərifləməyə.
- Mən siznən mərc gələrəm. Həyə bir yanda elə plov yemiş olsanız, tüpürün mənim üzümə.
Qonaqlar güldülər. Naçalnik də gülə-gülə dedi:
- A bəy, söz yox ki, evdəki tərifli atını da bizə görsədərsən. Qurbanəli bəy naçalnikə yaxınlaşıb hər iki əllərini qoydu gözünün üstə və dedi:
- Bu gözlərim üstə, hansını bəyənsən, peşkəşdi. Lotu lotuyana deyirəm, mən təzvir-məzvir bilmənəm. Hansını xoşlasan, atamın goru haqqı peşkəşdi sənə.
Nökər girdi içəri və dedi ki, Kərbəlayı Qasım yatıb. Bəy nökərin üzünə baxıb əvvəl dinmədi və sonra xəncərinin dəstəsindən yapışıb dedi:
- Get, o haramzada oğlu haramzadaya de ki, bu saat durub bura gəlməsə, bu xəncəli gedib soxaram onun qarnına!
Nökər çıxdı eşiyə. Pristavın arvadı bəyə üzünü tutub dedi:
- Niyə biçarə kişini oyadırsan? Nəyə lazımdır? Bəy cavab verdi:
- Ay xanım, başına dolanım, necə nəyə lazımdır? Ağzı nədi bu tezlikdə yatsın. Qoy gəlsin görək kimin hünəri var mənim aşpazım bişirən plovu bişirsin?!
Qonaqlar genə gülüşdülər.
Kərbəlayı Qasım şişmiş gözlərini bərəldib, girdi içəri. Ağası genə əlini xəncərin dəstəsinə aparıb dedi:
- Kəblə Qasım, mən səni öldürərəm! Qonaqlar genə gülüşdülər.
Kərbəlayı Qasım əllərini döşünə qoyub, alçaq səslə dedi:
- Niyə, başına dönüm, ağa? Bəy hirsli və uca səslə:

- Hələ soruşursan da niyə? Gəl gör bu ağalar nə deyirlər. Mən ha deyirəm ki, bizim Əli bişirən plovu heç kəs bişirə bilməz, bunlar inanmırlar.
Kərbəlayı Qasım alçaq səslə cavab verdi:
- Bəli, ağa, Əli yaxşı plov bişirir.Qurbanəli bəy üzünü qonaqlara tutub sevincək və ucadan dedi:
- Di, gördünüz? Di, gördünüz? İndi sözünüz nədi? Qonaqların çoxusu cavab verdi:
- Doğrudu, doğrudu, inanırıq.
Kərbəlayı Qasım çıxdı eşiyə.
Yarım saatdan sonra qonaqlar başladılar dağılmağa. Qurbanəli bəy atını və Kərbəlayı Qasım yabısını minib düşdülər yola. Bəy başını saldı aşağı və başladı mürgüləməyə. Hərdən bir yuxudan ayılıb atı saxlayırdı, üzünü çöndərirdi Kərbəlayı Qasıma və deyirdi:
- Bu xəncəli soxaram sənin qarnına!
Çox vaxt Kərbəlayı Qasım cavab vermirdi və gah vaxt deyirdi:
- Niyə, başına dönüm, ağa?
Bəy gah vaxt Kərbəlayı Qasıma cavab vermirdi, amma gah vaxt deyirdi:
- Kimin hünəri var Əli bişirən plovu bişirsin?!
İki saatdan sonra ağa və nökər yetişdilər kəndə. Kəndin içindən üç-dörd köpək hürə-hürə hücum çəkdilər Qurbanəli bəyin üstünə. At hürküb özünü verdi bir tərəfə, az qaldı bəyi salsın yerə. Qurbanəli bəyin börkü düşdü yerə və Kərbəlayı Qasım özünü atdan salıb ağasının börkünü qalxızıb verdi bəyə. Qurbanəli bəy xəncərini sıyırıb, atını sürdü itlərin üstünə. İtlər başladılar qaçışmağa.
Yekə imarətin darvazasının qabağında atlar dayandılar. Kərbəlayı Qasım yerdən bir daş götürüb başladı qapını döyməyə. Yekəpapaq bir kişi qapını açdı və Qurbanəli bəyin yanına qaçıb yapışdı atın cilovundan. Qurbanəli bəy hələ atdan yenməyib, xəncərin tiyəsini qalxızdı kişinin üstünə və dedi:

- Əli, bu xəncəli soxaram qarnına!
Nökər cavab verdi:
- İxtiyar sənindi, aga!
Sonra bəy atdan yenib girdi həyətə və pilləkəni qalxıb girdi otağa. Bəyin qaravaşı bir qoca arvad çıxdı ağasının qabağına və dedi:
- Ay ağa, nə gec gəldin? Xanım səndən ötrü çox niyaran oldu.
Bəy xəncərin tiyəsini arvada göstərib dedi:
- Gülpəri, bu xəncəli soxaram sənin qarnına!
Arvad dinmədi və çəkildi kənara. Bəy o biri otağa girib, gördü ki, arvadı paltarlarını soyunmamış dayanıb yastığa və yuxulayıb. Əvvəl gedib durdu arvadının yanında. O, xəncərin tiyəsini arvadının üstünə qalxızıb dedi:
- Bu xəncəli soxaram sənin qarnına!

Arvad ayılmadı. Qurbanəli bəy dəxi dinmədi və xəncəri atdı yerə. Sonra börkünü çıxarıb atdı bir səmtə və başladı soyunmağa. Paltarlarını və çəkmələrini çıxarıb hirslə hərəsini atdı bir yana, bir az su içdi və uzandı yerinə.
Bəyi yuxu tutdu.
Qurbanəli bəyin arvadı sübh vaxtı ayılıb gördü ki, əri gəlib yatıb; yavaşca paltarını geyib çıxdı eşiyə. Qaravaş süpürgə ilə həyəti süpürürdü. Kərbəlayı Qasım əlində xəlbir tövlənin qabağında durub, arpa təmizləyirdi ki, aparıb versin atlara.
Aşpaz Əli aşpazxananın qapısının yanında əlində xəkəndaz samavara kömür salırdı. Həyətin bir tərəfində toyuq-cücələr dən yeyirdilər və sərçələr hərdənbir dəstə ilə toyuq-cücələrin yanına yenib başlayırdlar dənlərdən yeməyə; amma bir səs eşitcək genə dəstə ilə qalxırdılar tut ağacına.
Qaravaş xanımı görcək əlində süpürgə getdi xanımın yanına, salam verdi. Xanım gözlərini ova-ova soruşdu ki, bəy nə vaxt gəlib yatdı? Qaravaş cavab verdi ki, gecədən çox keçmişdi ki, gəldi. Xanım Kərbəlayı Qasımı çağırdı. Kərbəlayı Qasım tövlədən çıxıb tez gəldi və baş yendirib durdu xanımın qabağında. Xanım Kərbəlayı Qasımdan soruşdu ki:
- Niyə belə gec gəldiniz? - Kərbəlayı Qasım cavab verdi:
- Qonaqlıq çox uzun çəkdi, onun üçün gec gəldik. - Xanım genə soruşdu:
- Pristavın qonağı çox idimi?- Kərbəlayı cavab verdi:
- Bəli, xanım, çox idi. - Xanım soruşdu:
- Kim idilər qonaqlar? - Kərbəlayı Qasım cavab verdi:
- Ay xanım, nə bilim, bir çoxlu böyük adamlar idi. Çoxlu xanım idi. Naçalnik özü də orada idi. Çox adam vardı. - Xanım genə soruşdu:
- Kəblə Qasım, xanımlar da elə kişilərnən bir yerdə oturmuşdular, ya ayrı oturmuşdular? - Kərbəlayı Qasım cavab verdi:
- Yox, elə hamısı qanşmışdı bir-birinə. Qaravaş bu sözləri eşitcək öz-özünə dedi:
- Bıy, aman Allah!
Xanım oturdu pilləkənin pilləsinin üstündə, Kərbəlayı Qasımı bir az yavığa çağırdı və dedi:
- Sən Allah, Kəblə Qasım, nağıl elə görək qonaqlıq necə keçdi, qonaqlara nə verdilər, ağan nə qayırırdı, kimnən danışdı, nə danışdı? Sən Allah, Kəblə Qasım hamısını nağıl elə.
Kərbəlayı çuxasının ətəyini qalxızıb ağzının və burnunun suyunu sildi. Tövlədən atlar başladılar bir-birinin üstünə çığırışmağa və Kərbəlayı Qasım üzünü tövləyə tutub çığırdı:
- Buna bax ha! - Xanım genə Kərbəlayı Qasıma dedi:
- Sən Allah, Kəblə Qasım, nağıl elə, görək.
Kərbəlayı Qasım cavab verdi:
- A xanım, dəxi nə deyim? Çox qonaq vardı. Nəçəlnik də orda idi.

Xanım genə Kərbəlayı Qasımdan soruşdu:
- Kəblə Qasım, urus arvadları bə kişilərnən nə danışırdılar?
Kərbəlayı Qasım cavab verdi:
- Xanım mən nə bilim ki, nə danışırdılar? Mən onların axı dilini bilmirəm ki?
Xanım genə soruşdu:
- Kəblə Qasım, doğrusunu de görək, ağan da urus arvadlarıynan danışdımı?
Kərbəlayı Qasım genə üzünü tövləyə tutub, çığırdı atların üstünə və xanıma cavab verdi:
- Ağam urus arvadlarıynan az danışdı; amma nəçəlniknən çox danışdı.
Aşpaz Əli samavarı gətirdi və çıxarıb qoydu pilləkənin üstə. Qaravaş süpürgəni dayadı divara, qalxdı pilləkənin üstünə və samavarı qalxızıb apardı evə. Aşpaz Əli yenib durdu xanımın qabağında və soruşdu:
- Xanım, bu gün nə pişirim? Xanım qaravaşı çağırıb dedi:
- Bə Qurbanəli bəy gecə demədi ki, nə pişirək?
Qaravaş əlində çay qabı xanımın yanına gəlib cavab verdi:
- Gecə ağa elə hirsli idi ki, hələ məni istəyirdi öldürsün.
Xanım təəccüb elədi və dedi:
- Yaxşı, yaxşı, elə danışma! Dəli olmamısan ki!
- Vallah, a xanım, ağam evə girən kimi xəncəlini çıxartdı və mənə dedi: "Xəncəlnən səni öldürərəm!".
Xanım bir qədər dinmədi və üzünü tutdu Kərbəlayı Qasıma:
- Kəblə Qasım, ağan niyə hirslənmişdi? Kərbəlayı Qasım cavab verdi:
- Ağam heç zada hirslənməmişdi. Ancaq kəndə yetişəndə köpək oğlunun itləri töküldülər üstümüzə və atlarımızı hürkütdülər.
Xanım durdu ayağa və dedi:
- Kəblə Qasım, yəqin ağan genə keflənmişdi. - Kərbəlayı Qasım cavab verdi:
- Xeyr keflənməmişdi.
Xanım girdi içəri və yavaşca Qurbanəli bəyin yanına yaxınlaşıb gördü ki, bərk yuxudadır. Sonra çıxdı eşiyə və aşpaz Əliyə on altı qəpik verib dedi:
- Əli, get, iki girvənkə ət al gətir, bozbaş pişir!
Əli pulları aldı və dedi:
- Baş üstə.
Kərbəlayı Qasım və Əli üz qoydular aşpazxanaya tərəf getməyə.

Gün qalxdı, günorta oldu. Kərbəlayı Qasım həyətdə oturmuşdu tut ağacının dibində və hərdənbir daş götürüb atırdı ağacın başına və tut quşlarını qovurdu və hərdənbir yerə tökülən yetişmiş tutlardan götürüb yeyirdi. Qaravaş da gəldi Kərbəlayı Qasımın yanına və başladı tutları seçib yeməyə. Bir az keçdi xanım da gəldi bunların yanına və başını qalxızıb, bir qədər yetişmiş tutlara baxdı və Kərbəlayı

Qasıma dedi ki, çıxsın ağaca, bir az tut silkələyib töksün. Qaravaş evdən bir çarşov gətirdi. Aşpaz Əli də bunların yanına gəldi və dedi:
- Siz çarşavı tutun, mən çıxım silkələyim.
Əli çıxdı ağaca. Xanım, qaravaş və Kərbəlayı Qasım çarşovu tutdular və Əli ağacın budağının birini tərpətdi və yekə-yekə yetişmiş ağ tutlar töküldü çarşava. Budağa bir iki təpik vurandan sonra Əli qalxdı bir az da yuxarı. Ağacın başından kəndin ətrafı əl içi kimi görünürdü. Bir tərəfdə düzülmüşdülər "Sapıç" dağları, dağların ətəyində "Sapıç" kəndi aşikar görünürdü. Kəndin aşağısında "Əhmədxan gölü" ağarırdı. Gölün yanında Hacı Heydərin dəyirmanı və meşəsi daha da aşkar görsənirdi. Dəyirmandan "Qapazlı" kəndinə kimi düzülmüşdülər taxta-taxta yaşıl zəmilər, yoncalıqlar və qara şum yerləri. Bax, görürsən, gah burada, gah orada kotanlar və cütlər şum yerləri sürürlər.
Həmin tamaşagaha bir qədər nəzər salandan sonra Əlinin gözünə bir belə şey də sataşdı: Hacı Heydər dəyirmanın yanında kəndə sarı bir dəstə atlı gəlirdi. Əli əvvəl buna qulaq asmadı və başladı budağın birini silkələməyə. Amma sonra genə diqqət saldı və gördü ki, atlılar kənd əhlinə oxşamırlar. Bunu görüb, Əli üzünü tutdu aşağı və dedi:
- Kəblə Qasım, kəndə çoxlu atlı gəlir; amma kəndliyə oxşamırlar. Kəblə Qasım, xanım və qaravaş bir qədər baxdılar bir-birinin üzü nə. Xanım dilləndi:
Kəblə Qasım, çıx aşpazxana damına, gör neçə atlıdılar?
Kərbəlayı Qasım gedib qalxdı alçaq divara, oradan qalxdı aşpazxana damının üstünə və sağ əlini gözünün üstünə qoyub başladı diqqətlə yola baxmağa.
Kəndin yavığında Kərbəlayı Qasımın gözünə əvvəl iki atlı göründü. Bunlar atlarını bərk çapırdılar. Dəxi bunlardan savayı yolda bir şey görünmürdü. Amma bir qədər keçdi, "Mərəzə"nin yanında söyüd ağaclarının dalından bir dəstə atlı çıxdı. Bunların içində naçalnik və pristavların düymələri və xanımların şlyapaları aşkar bilinirdi. Kərbəlayı Qasım tez yendi aşağı, qaçıb gəldi xanımın yanına və tövşüyə-tövşüyə dedi:
- Xanım, bu gələnlər deyəsən elə dünənki qonaqlardı. - Xanım çarşovun ucunu saldı yerə, gəldi Kərbəlayı Qasıma yavıq və dedi:
- Dünənki qonaqların burda nə işləri var?
Kərbəlayı Qasım əllərini qoydu bir-birinin üstünə və cavab verdi:
- Mən nə bilim, a xanım?
Bu heyndə küçədə mərəkə qopdu. İtlərin hürüşməsi, adamların qaçışması, at tappıltısı. Və bir az keçdi, küçə qapısı döyüldü.
Xanım qaçdı içəri və pəncərədən küçəyə baxıb gördü ki, küçə doludur atlılarla; hamısı rus qulluqçuları və rus xanımları. Kərbəlayı Qasım qapıya çıxıb gördü ki, dünən pristavın evindəki qonaqların hamısı gəlib dayanıb qapıya.
Xanım tez qaçdı eşiyə və Əlini çağırıb dedi: . - Get, de ki, ağa evdə deyil.

Əli qaçdı küçə qapısına və xanım qaçdı evə, Qurbanəli bəyi oyatdı. Bəy "a...a..." eləyib çöndü o biri səmtə, arvadı dedi:
- A kişi, dur, dünənki qonaqlar gəliblər bizə.
Qurbanəli bəy genə "a., a.. " eləyib gözlərini açdı və arvadına dedi:
- Cəhənnəm ol! - və genə gözlərini yumdu.
Arvadı genə dedi. Qurbanəli bəy gözlərini açıb, qalxdı oturdu və soruşdu:
- Nə deyirsən?
Arvadı sözünü bir də dedi. Bəy dik qalxdı ayağa, bir şey fikir elədi, qaçdı otağın o tərəfinə-bu tərəfinə, arvadına dedi:
- Qoy desinlər ağa evdə deyil.
Arvadı genə çıxdı eşiyə və bəy mələfəni götürüb çarşav kimi saldı başma, çıxdı həyətə, qaçıb soxuldu tövləyə və girdi atın axuruna.
Nökərlər qonaqlara dedilər:
- Ağa evdə deyil.
Naçalnik bu cavabı eşidib təəccüb elədi; habelə qeyri qonaqlar mat qaldılar. Kəndlilər başladılar qonaqların atlarını dolandırmağa. Naçalnik çıxardıb papirosunu yandırdı və nökərlərdən soruşdu:
- Bəy hara gedib ki, evdə deyil? - Nökərlər cavab verdilər:
- Bilmirik.
Naçalnik bir qədər dinməyib genə soruşdu:
- Bəs o ki özgə yerə gedəcəkdi, bizi niyə qonaq çağırdı?Nökərlər cavab verdilər ki: Bılmirik.
Xanımların biri bir stəkan su istədi. Kərbəlayı Qasım qaçdı evdən kasada su gətirdi. Qonaqlar bir qədər bir-birinin üzünə baxıb dedilər ki:
- Dəxi niyə dururuq, qayıdaq gedək.
Naçalnik də buna razı oldu; amma Kərbəlayı Qasıma üzünü tutub soruşdu:
- Bəyin atları tövlədədir?
Kərbəlayı Qasım dedi:
- Bəli.
Bu heyndə tövlədə atların biri başladı kişnəməyə. Naçalnik yoldaşlarına belə təklif elədi:
- Çox əcəb. Biz bu qədər yolu zəhmətlə gəlmişik; barı heç olmasa bəyin atlarına baxaq, sonra qayıdaq.
Yoldaşları razı oldular. Naçalnik genə Kərbəlayı Qasımdan tövləyə getməyə izin istədi. Kərbəlayı Qasım dedi:
- Buyurun!
Naçalnik, iki pristav, mal həkimi, xanımların ikisi və kazak əfsəri girdilər həyətə və üz qoydular tövləyə tərəf. Qurbanəli bəyin arvadı həyətdə qonaqları görüb, qaçdı soxuldu otağa və qonaqlar girdilər tövləyə. Naçalnik qabaqdakı atı görüb dedi:

- Bu elə bəyin dünənki atıdır.
Sonra qonaqlar yeridilər içəri və bir kəhər atın yanında dayandılar. Naçalnik atın qabağına keçib Kərbəlayı Qasımdan soruşdu:
- Budurmu bəyin tərifli atı? –
Kərbəlayı Qasım dedi:
- Bəli.
Qonaqlar başladılar atın o tərəfinə bu tərəfinə dolanmağa. Naçalnik axura tərəf hərəkət eləyib istədi atın ağzına baxsın. Axura yaxınlaşan kimi naçalnik dik atıldı və çığırdı:
- Ax, çort vozmi!
Axurun içində guya kəfənə bürünmüş bir şey naçalnikin gözünə sataşdı. Naçalnik yanındakı pristavın əlindən yapışıb yavaşca yeridi axurun yanına və diqqət eləyib gördü ki, axurdakı Qurbanəli bəy özüdü. Bunu görcək naçalnik çəpik çalıb, qəh-qəh çəkib güldü və dedi:
- A.. .a.. .a.. rəfiq, sən burda imişsən!!...
Qonaqlar da bir-bir gəlib bəyə diqqət ilə baxdılar və çəkilib durdular kənarda.
Qurbanəli bəy yerindən heç tərpəşmədi.
Qonaqlar çıxdılar küçəyə, atları mindilər və üz qoydular getməyə.
"Molla Nəsrəddin" jurnalının 120-illiyi ilə əlaqədar olaraq kitabxanada *"Molla Nəsrəddin" - milli mətbuatı və ya təzadlar dövrünün ziyalıları"* adlı **dəyirmi masa** keçirilə bilər. Bunun üçün kitabxanaçı məktəblilərə bu gün və müsabiqə haqqında məlumat verir.
***Kitabxanaçı:*** "Molla Nəsrəddin" in tədqiqinə hələ XX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə F.Köçərli, N.Nərimanov, Ü.Hacıbəyov, H.Minasazov, R.Məlikov və digər müəlliflərin mətbuat səhifələrindəki məqalələrində və həmin dövrdən sonra, sovet hakimiyyətinin ilk onilliklərində Ə.Nəzmi, M.Ələkbərli, Ə.Şərif və başqalarının əsərlərində "Molla Nəsrəddin" jurnalı tədqiq olunmuşdur. Bu əsərlərin ən yaxşı nümunələrində "Molla Nəsrəddin"in ədəbi-tarixi aspektdə öyrənilməsi cəhdlərinə rast gəlirik. "Molla Nəsrəddin" jurnalının intensiv surətdə öyrənilməsi XX əsrin 30-cu illərindən sonrakı dövrə təsadüf edir. Jurnalın tədqiqat tarixini bir neçə dövrə ayırmaq olar. İlk dövr 1930-1940-ci illəri əhatə edir ki, bu dövrdəki tədqiqatlar, əsasən, siyasi-ideoloji xarakter daşıyır. Belə tədqiqatlardan Ə.Abidin "Molla Nəsrəddin" məcmuəsi və çar senzurası" (İnqilab və mədəniyyət, 1936, №4-5, s.29-32), Ə.Cəfərzadənin "Molla Nəsrəddin" jurnalı beynəlxalq irtica əleyhinə mübarizədə" ("İnqilab və mədəniyyət" jurnalı, 1951, №8, s. 137-144), N.Axundovun "Birinci rus inqilabı və "Molla Nəsrəddin" (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri, 1955, №2, s.15-54), "Molla Nəsrəddin" və Asiyanın oyanması" (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri, 1955, №3, s.73-102), N.Bağırovun "Molla Nəsrəddin" jurnalında fəhlə hərəkatı məsələləri" (ADU-nun

Elmi Əsərləri, 1966, №4, s.32-40), M.Qasımovun "Birinci rus inqilabı və onun ideyalarının "Molla Nəsrəddin" jurnalında inikası" (EA-nın Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, 1955, X cild, s.266-300), "Molla Nəsrəddin" məcmuəsinin İran və Cənubi Azərbaycan inqilabi hərəkatına münasibəti" (ADU-nun Elmi Əsərləri 1969, 11-ci buraxılış, s.65-69), Ə.Məmmədovun "Molla Nəsrəddin" jurnalının dini mövhumatla mübarizəsi" ("Azərbaycan dili və ədəbiyyatın tədrisi" 1959, 1-ci buraxılış, s.15-28), Y.Ələkbərovun "Molla Nəsrəddin" jurnalında dövlət və hüquq məsələləri" ("Azərbaycan" jurnalı, 1961, №12, s.201-205), İ.Talıbzadənin "Molla Nəsrəddin" jurnalında Azərbaycan kəndi" ("Azərbaycan" jurnalı, 1966, №11, s.181-184).

Ə.Mirəhmədovun 1948-ci ildə yazdığı "Molla Nəsrəddin"in nəşri tarixindən" məqaləsi (Ədəbiyyat İnstitutunun Əsərləri, 1948, III cild, s.48-50) bu satirik mətbuat orqanının araşdırılmasında mühüm yer tutur. Bu illərdə "Molla Nəsrəddin" jurnalının tədqiq tarixinin öyrənilməsində Nazim Axundovun xidmətlərini xüsusi qeyd etmək olar. Onun "Molla Nəsrəddin" jurnalının tarixinə və nəşrinə dair bir sıra tədqiqat əsərləri mövcuddur ki, onlardan aşağıdakıları göstərmək olar: "Molla Nəsrəddin" jurnalının tarixinə dair tədqiqlər (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri. 1954, №1, s.3-37); "Molla Nəsrəddin" Azərbaycanda Sovet hakimiyyəti illərində" ("Azərbaycan" jurnalı, 1956, №4, s.138-146). 1959-cu ildə N.Axundov "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" tədqiqat işini kitab şəklində nəşr etdirmişdir. O, 1968-ci ildə Azərbaycan EA-nın nəşriyyatı tərəfindən çap olunmuş "Azərbaycan satira jurnalları (1906-1920-ci illər)" adlı sanballı monoqrafiyasında da "Molla Nəsrəddin" jurnalına geniş yer ayırmışdır.

Ayrı-ayrı şəxslərin "Molla Nəsrəddin" jurnalı ilə əlaqələri tədqiqatçıların diqqət mərkəzində olmuşdur. K.Talıbzadənin "M.S.Ordubadinin "Molla Nəsrəddin" jurnalında çap edilmiş əsərləri haqqında (1906-1907)" (Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Əsərləri, 1954, VI cild, s.93-101); Ə.Şərifin "Sabir və "Molla Nəsrəddin" (M.Ə.Sabir: Məqalələr məcmuəsi. Bakı, Azərnəşr, 1962, s.69-92); Q.Məmmədlinin "Molla Nəsrəddin" və Tukay" ("Azərbaycan" jurnalı, 1964, №2), H.Əfəndiyevin "Haqverdiyev və "Molla Nəsrəddin" ("Azərbaycan" jurnalı, 1964, №8, s.189-195), Ə.Ruhinin "Molla Nəsrəddin və "Toxmaq" jurnalı" ("Azərbaycan", 1966, №12. s.136-139), Y.Şirvanın "Molla Nəsrəddin" və Ü.Hacıbəyov" (ADU-nun Əsərləri, 1966, №4, s.10-19), Ə.Məftunun "M.S.Ordubadi və "Molla Nəsrəddin" məcmuəsi" (ADU-nun Elmi Əsərləri, 1966, №4, s.41-55); İ.Bəktaşinin "Firidun bəy Köçərli və "Molla Nəsrəddin" (ADU-nun Elmi Əsərləri, 1968, №3, s.45-56); Ə.Mirəhmədovun "Abdulla Şaiqin mollanəsrəddinçilərlə ideya-yaradıcılıq əlaqəsi" (EA-nın Xəbərləri, 1971, №3-4, s.3-10); İ.Həbibbəylinin "Mübariz "Molla Nəsrəddin"çi: Əliquli Qəmküsar. (EA-nın Xəbərləri, 1981, №1. s.13-14); A.Rüstəmlinin "Görkəmli mollanəsrəddinçi" ("Azərbaycan dili və ədəbiyyatı

tədrisi", 1986, №1, s.50-54) və "Özgə imzalar: "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələrindən B.Abbaszadə haqqında" ("Azərbaycan" jurnalı, 1989, №9, s.176-180) və s. "Molla Nəsrəddin" jurnalının tədqiqinə həsr olunmuşdur.

Tədqiqatçılar "Molla Nəsrəddin" jurnalının Azərbaycan dilinin saflığı, təmizliyi uğrundakı mübarizəsi məsələlərindən də kənarda qalmamışlar. Azərbaycanın görkəmli dilçi alimləri öz elmi əsərlərində bu məsələyə geniş yer ayırmışlar. Belə yazılardan, əsasən, aşağıdakıları göstərmək olar: E.Əlibəyzadə "Molla Nəsrəddin" jurnalının birinci nömrəsində dil məsələsi" (Ədəbiyyat məcmuəsi, Ədəbiyyat və Dil İnstitutunun Əsərləri, Bakı, 1954, s.93-101), A.S.Cahangirov "Azərbaycan ədəbi dilinin təmizliyi uğrunda "Molla Nəsrəddin" jurnalının rolu haqqında: Bəzi qeydlər" (EA-nın Xəbərləri, 1956, №9, s.63-68), Q.Kazımov "Molla Nəsrəddin" jurnalının sovet dövrü felyetonlarının ictimai-siyasi leksikası və frazeologiyası" (ADU-nun Elmi Əsərləri, 1971, №6, s.69-79).

"Molla Nəsrəddin" jurnalının tədqiqatçıları onun rəsmlərini də tədqiqatlarından kənarda qoymamışlar. Belə tədqiqat əsərlərindən T.Həsənzadə "Molla Nəsrəddin"in karikaturaları (Bakı, Azərnəşr, 1966, 70 s.); H.İsrafilov, M.Nəcəfovun "Molla Nəsrəddin" jurnalının rəssamları" ("Azərbaycan" jurnalı, 1967, №5, s.114-123); İ.Ağayev "Molla Nəsrəddin" jurnalının mətnlərlə rəsmlərinin əlaqəsi" (ADU-nun Elmi Əsərləri, 1972, №2, s.48-54); M.Nəcəfov "Əzim Əzimzadə: həyat və yaradıcılığı" (Bakı, Azərnəşr, 1973, 208 s); "Molla Nəsrəddin" ədəbi məktəbi və satirik qrafika" (XX əsr Azərbaycan ədəbiyyatı məsələləri". Bakı, "Elm", 1989, 3-cü kitab, s.53-69); İ.Həbibbəyli "Alman rəssamları "Molla Nəsrəddin"də" (Fikir, 2001, №2, s.24-31); İ.Həbibbəyli "Mollanəsrəddinçi karikatura ustası Oskar Şmerlinq" (Naxçıvan, "Gəmiqaya", 2002); B.Hacızadə "Azərbaycanın karikaturaçı rəssamları" (Bakı, "Çaşıoğlu", 2005, 120 s.).

"Molla Nəsrəddin" jurnalındakı sənətkarlıq məsələlərinin öyrənilməsində İslam Ağayevin xüsusi xidmətləri vardır. Onun "Molla Nəsrəddin" jurnalında publisistika" (ADU-nun Elmi Əsərləri, 1974, №3-4, s.75-81), "Molla Nəsrəddin" jurnalında publisistikanın analitik janrları" (ADU-nun Elmi Əsərləri, 1977, №4, s.40-48), "Molla Nəsrəddin" jurnalında jurnalında şeir" (XX əsr Azərbaycan ədəbiyyatı məsələləri, Bakı, "Elm", 1979, s.97-125), "Molla Nəsrəddin"in poetikası" (Bakı, "Elm", 1985, 165 s.) kimi elmi tədqiqatları jurnalın sənətkarlıq məsələlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

"Molla Nəsrəddin" jurnalındakı yazılar gizli imzalarla dərc olunurdu. Həmin imzaların əsl müəlliflərini aşkarlamağın böyük əhəmiyyəti vardır. Bu sahədə Elmira Qasımovanın aşağıdakı məqalələrinin böyük əhəmiyyəti olmuşdur: "Cəlil Məmmədquluzadənin "Dəli" imzası haqqında" (EA-nın Xəbərləri, 1978, №3, s.28-31), "Cəlil Məmmədquluzadənin "Lağlağı" imzası haqqında" (Azərbaycan mətnşünaslığı məsələləri. Bakı, "Elm", 1979, s.58-62), "Cəlil Məmmədquluzadənin

"Molla Nəsrəddin" jurnalında "Mozalan "imzası haqqında" (EA-nın Xəbərləri, 1980, №3, s.33-38), "İmzalar "Molla Nəsrəddin"(1906-1931)" (A.Əliyeva ilə birlikdə, Bakı, 2015, 196 s.), "Gizli imza və atribusiya" (Bakı, "Avropa", 2017), "Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920)" . (Bakı, "Avropa", 2019).

Ə.Mirəhmədov, Ə.Şərif, İ.Həbibbəyli, N.Axundov, İ.Ağayev, T.Həsənzadə, M.Qasımov, Q.Məmmədli, M.Məmmədov, E.Qasımova, İ.Cəfərli, R.Qasımov, G.Babayeva, S.Vahabova "Molla Nəsrəddin" jurnalının əsas tədqiqatçılarındandır. Akademik İ.Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası, habelə "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik", "Molla Nəsrəddin" və füyuzatçılar", "Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilik" məqalələri Azərbaycan mollanəsrəddinşünaslığının qiymətli elmi səhifələridir. Azərbaycan ictimai-sosial həyatının elə bir sahəsi yoxdur ki, "Molla Nəsrəddin" jurnalı onunla əlaqədar olaraq tədqiq edilib öyrənilməsin.

"Molla Nəsrəddin"in tədqiqinə hələ XX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə F.Köçərli, N.Nərimanov, Ü.Hacıbəyov, H.Minasazov, R.Məlikov və digər müəlliflərin mətbuat səhifələrindəki məqalələrində və həmin dövrdən sonra, sovet hakimiyyətinin ilk onilliklərində Ə.Nəzmi, M.Ələkbərli, Ə.Şərif və başqalarının əsərlərində "Molla Nəsrəddin" jurnalı tədqiq olunmuşdur. Bu əsərlərin ən yaxşı nümunələrində "Molla Nəsrəddin"in ədəbi-tarixi aspektdə öyrənilməsi cəhdlərinə rast gəlirik. "Molla Nəsrəddin" jurnalının intensiv surətdə öyrənilməsi XX əsrin 30-cu illərindən sonrakı dövrə təsadüf edir. Jurnalın tədqiqat tarixini bir neçə dövrə ayırmaq olar. İlk dövr 1930-1940-ci illəri əhatə edir ki, bu dövrdəki tədqiqatlar, əsasən, siyasi-ideoloji xarakter daşıyır. Belə tədqiqatlardan Ə.Abidin "Molla Nəsrəddin" məcmuəsi və çar senzurası" (İnqilab və mədəniyyət, 1936, №4-5, s.29-32), Ə.Cəfərzadənin "Molla Nəsrəddin" jurnalı beynəlxalq irtica əleyhinə mübarizədə" ("İnqilab və mədəniyyət" jurnalı, 1951, №8, s. 137-144), N.Axundovun "Birinci rus inqilabı və "Molla Nəsrəddin" (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri, 1955, №2, s.15-54), "Molla Nəsrəddin" və Asiyanın oyanması" (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri, 1955, №3, s.73-102), N.Bağırovun "Molla Nəsrəddin" jurnalında fəhlə hərəkatı məsələləri" (ADU-nun Elmi Əsərləri, 1966, №4, s.32-40), M.Qasımovun "Birinci rus inqilabı və onun ideyalarının "Molla Nəsrəddin" jurnalında inikası" (EA-nın Tarix və Fəlsəfə İnstitutunun Əsərləri, 1955, X cild, s.266-300), "Molla Nəsrəddin" məcmuəsinin İran və Cənubi Azərbaycan inqilabi hərəkatına münasibəti" (ADU-nun Elmi Əsərləri 1969, 11-ci buraxılış, s.65-69), Ə.Məmmədovun "Molla Nəsrəddin" jurnalının dini mövhumatla mübarizəsi" ("Azərbaycan dili və ədəbiyyatın tədrisi" 1959, 1-ci buraxılış, s.15-28), Y.Ələkbərovun "Molla Nəsrəddin" jurnalında dövlət və hüquq məsələləri" ("Azərbaycan" jurnalı, 1961, №12, s.201-205), İ.Talıbzadənin

"Molla Nəsrəddin" jurnalında Azərbaycan kəndi" ("Azərbaycan" jurnalı, 1966, №11, s.181-184).

Ə.Mirəhmədovun 1948-ci ildə yazdığı "Molla Nəsrəddin"in nəşri tarixindən" məqaləsi (Ədəbiyyat İnstitutunun Əsərləri, 1948, III cild, s.48-50) bu satirik mətbuat orqanının araşdırılmasında mühüm yer tutur. Bu illərdə "Molla Nəsrəddin" jurnalının tədqiq tarixinin öyrənilməsində Nazim Axundovun xidmətlərini xüsusi qeyd etmək olar. Onun "Molla Nəsrəddin" jurnalının tarixinə və nəşrinə dair bir sıra tədqiqat əsərləri mövcuddur ki, onlardan aşağıdakıları göstərmək olar: "Molla Nəsrəddin" jurnalının tarixinə dair tədqiqlər (Kirovabad Pedaqoji İnstitutunun Əsərləri. 1954, №1, s.3-37); "Molla Nəsrəddin" Azərbaycanda Sovet hakimiyyəti illərində" ("Azərbaycan" jurnalı, 1956, №4, s.138-146). 1959-cu ildə N.Axundov "Molla Nəsrəddin" jurnalının nəşri tarixi" tədqiqat işini kitab şəklində nəşr etdirmişdir. O, 1968-ci ildə Azərbaycan EA-nın nəşriyyatı tərəfindən çap olunmuş "Azərbaycan satira jurnalları (1906-1920-ci illər)" adlı sanballı monoqrafiyasında da "Molla Nəsrəddin" jurnalına geniş yer ayırmışdır.

Ayrı-ayrı şəxslərin "Molla Nəsrəddin" jurnalı ilə əlaqələri tədqiqatçıların diqqət mərkəzində olmuşdur. K.Talıbzadənin "M.S.Ordubadinin "Molla Nəsrəddin" jurnalında çap edilmiş əsərləri haqqında (1906-1907)" (Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Əsərləri, 1954, VI cild, s.93-101); Ə.Şərifin "Sabir və "Molla Nəsrəddin" (M.Ə.Sabir: Məqalələr məcmuəsi. Bakı, Azərnəşr, 1962, s.69-92); Q.Məmmədlinin "Molla Nəsrəddin" və Tukay" ("Azərbaycan" jurnalı, 1964, №2), H.Əfəndiyevin "Haqverdiyev və "Molla Nəsrəddin" ("Azərbaycan" jurnalı, 1964, №8, s.189-195), Ə.Ruhinin "Molla Nəsrəddin və "Toxmaq" jurnalı" ("Azərbaycan", 1966, №12. s.136-139), Y.Şirvanın "Molla Nəsrəddin" və Ü.Hacıbəyov" (ADU-nun Əsərləri, 1966, №4, s.10-19), Ə.Məftunun "M.S.Ordubadi və "Molla Nəsrəddin" məcmuəsi" (ADU-nun Elmi Əsərləri, 1966, №4, s.41-55); İ.Bəktaşinin "Firidun bəy Köçərli və "Molla Nəsrəddin" (ADU-nun Elmi Əsərləri, 1968, №3, s.45-56); Ə.Mirəhmədovun "Abdulla Şaiqin mollanəsrəddinçilərlə ideya-yaradıcılıq əlaqəsi" (EA-nın Xəbərləri, 1971, №3-4, s.3-10); İ.Həbibbəylinin "Mübariz "Molla Nəsrəddin"çi: Əliquli Qəmküsar. (EA-nın Xəbərləri, 1981, №1. s.13-14); A.Rüstəmlinin "Görkəmli mollanəsrəddinçi" ("Azərbaycan dili və ədəbiyyatı tədrisi", 1986, №1, s.50-54) və "Özgə imzalar: "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələrindən B.Abbaszadə haqqında" ("Azərbaycan" jurnalı, 1989, №9, s.176-180) və s. "Molla Nəsrəddin" jurnalının tədqiqinə həsr olunmuşdur

Tədqiqatçılar "Molla Nəsrəddin" jurnalının Azərbaycan dilinin saflığı, təmizliyi uğrundakı mübarizəsi məsələlərindən də kənarda qalmamışlar. Azərbaycanın görkəmli dilçi alimləri öz elmi əsərlərində bu məsələyə geniş yer ayırmışlar. Belə

yazılardan, əsasən, aşağıdakıları göstərmək olar: E.Əlibəyzadə "Molla Nəsrəddin" jurnalının birinci nömrəsində dil məsələsi" (Ədəbiyyat məcmuəsi, Ədəbiyyat və Dil İnstitutunun Əsərləri, Bakı, 1954, s.93-101), A.S.Cahangirov "Azərbaycan ədəbi dilinin təmizliyi uğrunda "Molla Nəsrəddin" jurnalının rolu haqqında: Bəzi qeydlər" (EA-nın Xəbərləri, 1956, №9, s.63-68), Q.Kazımov "Molla Nəsrəddin" jurnalının sovet dövrü felyetonlarının ictimai-siyasi leksikası və frazeologiyası" (ADU-nun Elmi Əsərləri, 1971, №6, s.69-79).

"Molla Nəsrəddin" jurnalının tədqiqatçıları onun rəsmlərini də tədqiqatlarından kənarda qoymamışlar. Belə tədqiqat əsərlərindən T.Həsənzadə "Molla Nəsrəddin"in karikaturaları (Bakı, Azərnəşr, 1966, 70 s.); H.İsrafilov, M.Nəcəfovun "Molla Nəsrəddin" jurnalının rəssamları" ("Azərbaycan" jurnalı, 1967, №5, s.114-123); İ.Ağayev "Molla Nəsrəddin" jurnalının mətnlərlə rəsmlərinin əlaqəsi" (ADU-nun Elmi Əsərləri, 1972, №2, s.48-54); M.Nəcəfov "Əzim Əzimzadə: həyat və yaradıcılığı" (Bakı, Azərnəşr, 1973, 208 s); "Molla Nəsrəddin" ədəbi məktəbi və satirik qrafika" (XX əsr Azərbaycan ədəbiyyatı məsələləri". Bakı, "Elm", 1989, 3-cü kitab, s.53-69); İ.Həbibbəyli "Alman rəssamları "Molla Nəsrəddin"də" (Fikir, 2001, №2, s.24-31); İ.Həbibbəyli "Mollanəsrəddinçi karikatura ustası Oskar Şmerlinq" (Naxçıvan, "Gəmiqaya", 2002); B.Hacızadə "Azərbaycanın karikaturaçı rəssamları" (Bakı, "Çaşıoğlu", 2005, 120 s.).

"Molla Nəsrəddin" jurnalındakı sənətkarlıq məsələlərinin öyrənilməsində İslam Ağayevin xüsusi xidmətləri vardır. Onun "Molla Nəsrəddin" jurnalında publisistika" (ADU-nun Elmi Əsərləri, 1974, №3-4, s.75-81), "Molla Nəsrəddin" jurnalında publisistikanın analitik janrları" (ADU-nun Elmi Əsərləri, 1977, №4, s.40-48), "Molla Nəsrəddin" jurnalında jurnalında şeir" (XX əsr Azərbaycan ədəbiyyatı məsələləri, Bakı, "Elm", 1979, s.97-125), "Molla Nəsrəddin"in poetikası" (Bakı, "Elm", 1985, 165 s.) kimi elmi tədqiqatları jurnalın sənətkarlıq məsələlərinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir.

"Molla Nəsrəddin" jurnalındakı yazılar gizli imzalarla dərc olunurdu. Həmin imzaların əsl müəlliflərini aşkarlamağın böyük əhəmiyyəti vardır. Bu sahədə Elmira Qasımovanın aşağıdakı məqalələrinin böyük əhəmiyyəti olmuşdur: "Cəlil Məmmədquluzadənin "Dəli" imzası haqqında" (EA-nın Xəbərləri, 1978, №3, s.28-31), "Cəlil Məmmədquluzadənin "Lağlağı" imzası haqqında" (Azərbaycan mətnşünaslığı məsələləri. Bakı, "Elm", 1979, s.58-62), "Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalında "Mozalan "imzası haqqında" (EA-nın Xəbərləri, 1980, №3, s.33-38), "İmzalar "Molla Nəsrəddin"(1906-1931)" (A.Əliyeva ilə birlikdə, Bakı, 2015, 196 s.), "Gizli imza və atribusiya" (Bakı, "Avropa", 2017),

"Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920)" . (Bakı, "Avropa", 2019).

Ə.Mirəhmədov, Ə.Şərif, İ.Həbibbəyli, N.Axundov, İ.Ağayev, T.Həsənzadə, M.Qasımov, Q.Məmmədli, M.Məmmədov, E.Qasımova, İ.Cəfərli, R.Qasımov, G.Babayeva, S.Vahabova "Molla Nəsrəddin" jurnalının əsas tədqiqatçılarındandır.

Akademik İ.Həbibbəylinin "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" monoqrafiyası, habelə "Molla Nəsrəddin" ədəbi məktəbi və mollanəsrəddinçilik", "Molla Nəsrəddin" və füyuzatçılar", "Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin" jurnalı və mollanəsrəddinçilik" məqalələri Azərbaycan mollanəsrəddinşünaslığının qiymətli elmi səhifələridir. Azərbaycan ictimai-sosial həyatının elə bir sahəsi yoxdur ki, "Molla Nəsrəddin" jurnalı onunla əlaqədar olaraq tədqiq edilib öyrənilməsin.

Kitabxanada "Molla Nəsrəddin" jurnalının 120 illiyi ilə bağlı oxucuları maarifləndirmək adına kitabxanaçı kitabxanalarla birgə məktəblərdə də mütəmadi tədbirlər keçirir. Belə tədbirlərdən biri də *"Gələcək mətbuat tariximizi bilən gəncliyimizin əlindədir"* adlı **viktorinadır.** Oxucuların yaddaşını artırmaq və mətbuatımızla bağlı bilgilərini gücləndirmək məqsədi daşımaqdadır. Viktorinaya cəlb olunan məktəblilər əvvəlcədən bir həftə ərzində şanlı mətbuat tariximizlə və eləcə də dövrün güzgüsü sayılan "Molla Nəsrəddin" jurnalı ilə bağlı kitabxanaya gələrək məlumat toplayırlar. Zalda mövzu ilə bağlı sərgi təşkil olunur. Kitabxanaçı ilk olaraq sərgidə yer alan bu mövzudan bəhs edən kitablar haqqında məlumat verdikdən sonra "Molla Nəsrəddin" jurnalının yubileyinə həsr olunmuş viktorina suallarını iştirakçılara təqdim edir. Suallarla sizləri tanış edirik:

**SUALLAR:**

1. *"Molla Nəsrəddin" jurnalının ilk sayı neçənci ildə nəşr olunmuşdur?*

Cavab: 1906-cı ildə.

2. *"Molla Nəsrəddin" jurnalının banisi və baş redaktoru kim idi?*

Cavab: Cəlil Məmmədquluzadə.

3. *"Molla Nəsrəddin" jurnalı ilk dəfə hansı şəhərdə çap olunmuşdur?*

Cavab: Tbilisi şəhərində.

4. *"Molla Nəsrəddin" jurnalı əsasən hansı janrda fəaliyyət göstərirdi?*

Cavab: Satirik jurnal kimi fəaliyyət göstərirdi.

5. *Jurnalın məqsədi nə idi?*

Cavab: Cəmiyyətdəki savadsızlığı, ədalətsizliyi və geriliyi tənqid etmək.

6. *"Molla Nəsrəddin" jurnalında karikaturalardan niyə istifadə olunurdu?*

Cavab: Problemləri daha təsirli və düşündürücü şəkildə göstərmək üçün.

7. *Jurnalın adı hansı məşhur xalq obrazı ilə bağlıdır?*

Cavab: Molla Nəsrəddin obrazı ilə.

8. *"Molla Nəsrəddin" jurnalında qadın azadlığı mövzusuna münasibət necə idi?*

Cavab: Jurnal qadınların təhsil almasını və hüquqlarını müdafiə edirdi.

9. *Jurnal hansı dillərdə çap olunurdu?*

Cavab: Əsasən Azərbaycan türkcəsində.

10. *"Molla Nəsrəddin" jurnalının tanınmış rəssamlarından biri kim idi?*

Cavab: Əzim Əzimzadə.

11. *Jurnal hansı problemləri daha çox tənqid edirdi?*

Cavab: Savadsızlıq, mövhumat, rüşvətxorluq və sosial ədalətsizlik.

12. *"Molla Nəsrəddin" jurnalının Azərbaycan mətbuatındakı rolu nə olmuşdur?*

Cavab: Satirik mətbuatın inkişafına böyük təsir göstərmişdir.

13. *Jurnalın yubileyi nə üçün əlamətdar hesab olunur?*

Cavab: Azərbaycan milli mətbuat və satira tarixinin mühüm hadisəsi olduğu üçün.

14. *"Molla Nəsrəddin" jurnalının oxucular arasında məşhur olmasının əsas səbəbi nə idi?*

Cavab: Sadə dil, yumor və cəmiyyət problemlərini açıq şəkildə göstərməsi.

15. *"Molla Nəsrəddin" jurnalının bu gün üçün ən böyük əhəmiyyəti nədir?*

Cavab: Azad fikir, tənqidi düşüncə və maarifçiliyin vacibliyini yaşatması.

Kitabxanada "Molla Nəsrəddin" jurnalının 120 illiyi ilə bağlı müxtəlif tədbirlər keçirilməsi məqsədəuyğundur. Oxucuları maarifləndirmək adına kitabxanaçı kitabxanalarla birgə məktəblərdə də mütəmadi tədbirlər keçirir. Belə tədbirlərdən biri də *""Molla Nəsrəddin" jurnalında ana dili məsələsi"* adlı **oxucularla söhbətdir.**

Bizim milli varlığımızı mədəni təməllərə bağlayan, Azərbaycançılığın ən vacib atributu olan dilimizdir. Hər şey dildən başlayır. Xalqın dilini onun çoxəsrlik həyatının güzgüsü, nəsillər arasında ötürücü əlaqə, yaddaş vasitəsi, xalqın tam və həqiqi tarixidir. Dil xalqın mahiyyəti deməkdir. Əgər o yox olarsa, xalq da yer

üzündən silinər. Ona görə də, bu doğma dilimizin yad təsirlərdən qorunması, inkişaf etməsi və yüksək səviyyə qaldırılması uğrunda mübarizədə Azərbaycan ziyalısı həmişə öz mövqeyini ortaya qoyub. Ana dilinin saflığı və inkişaf etdirilməsi uğrunda mübarizə ideyası mollanəsrəddinçilərin Azərbaycançılıq ideyasının əsas tərkib hissələrindən biri idi. Bu cəhətdən Azərbaycan milli ictimai fikir tarixində mühüm yeniliklər həyata keçirən “Molla Nəsrəddin” jurnalı həm də milli ədəbi dil kimi Azərbaycan dilinin kütləviləşməsi və inkişafına misilsiz xidmət göstərmişdir. Bu baxımdan XIX əsrin ikinci yarısında ana dilimizin saflığı uğrunda M.F.Axundzadə və H.B.Zərdabi tərəfindən aparılan mübarizəni XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadə və naşiri olduğu "Molla Nəsrəddin" jurnalı davam etdirmişdir. “Molla Nəsrəddin” jurnalının yaratdığı “Molla Nəsrddin” məktəbi və ədəbi cəbhəsinə çevrildiyi Azərbaycan tənqidi realistləri “türkün açıq ana dilində” yazmaq və danışmaq ənənəsini formalaşdırmaqla XX əsr Azərbaycan ədəbi dilinin inkişafına vəsilə oldular. Bu baxımdan dosent Ramiz Qasımov haqlı olaraq yazır ki, XX əsrdə Azərbaycan ədəbi dilinin formalaşması və inkişafında tənqidi realistlərin mühüm rolu olmuşdur. “...xalqın ən sadəsini, sadə avam xalq kütlələrindən başlamış, bütün geniş kütlələri vahid milli amal, məqsəd naminə oyatmaq, vəzifələrini başa salmaq üçün onların anlaya biləcəyi dildən danışmaq da konkret yaradıcılıq tərzi olaraq ortaya çıxdı və ənənəyə çevrildi”. Bu baxımdan qüdrətli söz ustadı Cəlil Məmmədquluzadənin, redaktoru olduğu “Molla Nəsrəddin” jurnalı və ümumən mollanəsrəddinçilərin xalqın səadəti, azadlığı və tərəqqisi naminə apardıqları mücadilənin əsasını ana dilinin saflığı, təmizliyi uğrunda mübarizə təşkil etmişdir. ”Molla Nəsrəddin” satirik jurnalında fəaliyyət göstərən ədəbi qüvvələr millətin oyanışına xidməti ön plana çəkirdilər, çünki Azərbaycanın milli oyanışı milli ideya uğrunda mübarizə hərəkatının çox mühüm tərkib hissəsidir. Klassik bədii və publisistk söz sənətimizdə bu cəhətin dərindən dərk edildiyi daha çox duyulmaqdadır”. Mollanəsrəddinçilərin hamısı Azərbaycan ədəbiyyatına istiqlal düşüncəsi gətirən Cəlil Məmmədquluzadənin ideyasından çıxış edirdilər.

Azərbaycanın görkəmli maarifçiləri M.F.Axundov, H.B.Zərdabi, M.Ə.Sabir, F.Köçərli, R.Əfəndiyev, N.Nərimanov, M.T.Sidqi, C.Məmmədquluzadə, M.Mahmudbəyov, Ü.Hacıbəyov və başqaları bütün fəaliyyətləri boyu məktəblərdə ana dillinin tədris edilməsi və ana dilli məktəblərin açılması uğrunda mübarizə aparmışlar. Onlar xalq maarifi uğrundakı mübarizəni, xalqı maarifləndirməyin ən güclü silahı olan ana dilinin saflığı və inkişafı uğrundakı mübarizə ilə əlaqələndirirdilər.

Azərbaycan maarifçilərinin ana dilində məktəb açmaq fikirlərini C.Məmmədquluzadə ürəkdən bəyənmiş və “Molla Nəsrəddin” jurnalını da ana dilində nəşr etmişdi. C.Məmmədquluzadə ömrünün axırına kimi ana dilinin saflığı,

təmizliyi uğrunda mübarizə aparmış, onu hər cür yad təsirlərdən qorumağa çalışmışdır. Sənətkarın ədəbi-bədii yaradıcılığında ədəbi dilin saflığına göstərdiyi sayıq münasibət publisistik əsərlərində danışıq dilinə də ünvanlanırdı. Onun naşiri olduğu "Molla Nəsrəddin" jurnalında çap olunan "Dil", "Əlifba", "Dərs kitablarımız", "Ana dili" və bu qəbildən olan bir sıra məqalələri məhz ana dili probleminə həsr olunmuşdur.

"Molla Nəsrəddin" jurnalında millətə milli mənlik şüuru aşılamaq, mənəvi dirilik dərsi keçmək üçün təlimin ana dilində aparılması ideyası geniş surətdə təbliğ edilir, ana dilinin tədrisi bütün təlim işinin mərkəzinə qoyulurdu. "Molla Nəsrəddin" jurnalı ilk nömrədən başlayaraq sonuncu nömrəyə kimi ana dilində yazdı.

Heç də təsadüfü deyil ki, birinci nömrəsini "…ey mənim türk (azərbaycanlı) qardaşlarım mən ki, siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyb deyildir. Amma hərdən bir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi… hərdən bir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var! – sözləri ilə başlayan "Molla Nəsrəddin" jurnalı son nömrəyə kimi öz sözünə sadiq qaldı, ana dilinə ehtiram göstərdi və onun fəal təbliğatçısına çevrildi. Jurnalın ilk nömrəsində dərc edilmiş "məcmuəmizə müştəri olanlara nəsihət"də əks mənada başa düşüləcək beş nəsihət verilirdi. Həmin "Nəsihət"də göstərilirdi ki, "məktubları elə bir dildə yazın ki, bir dənə türk kəlməsi olmasın. Türkcə yazmaq eybdir".

"Molla Nəsrəddin" jurnalı Azərbaycan dilinin varlığı, yaşaması və tərəqqisi üçün ən mühüm vasitəni xalqın siyasi hüquqa malik olmasını, onun rəsmi dövlət dili olması hesab edirdi. Çarizm zamanı qeyri rus millətlərinin, o cümlədən, Azərbaycan xalqının da heç bir siyasi hüququ yox idi. Jurnal hüquq bərabərsizliyinə qarşı mübarizə aparırdı. "Molla Nəsrəddin" jurnalı Azərbaycan məktəblərində ana dilinin tədris edilməsini hərarətlə təbliğ etmiş və onun böyük carçısı olmuşdur. Ona görə də jurnalın apardığı mübarizə xalqını sevən, onun gələcəyini düşünən insanlar tərəfindən alqışlanırdı. "Molla Nəsrəddin" jurnalının ortaya atdığı hər bir ideya maarifçilər, maarifpərvərlər, məktəbdarlar tərəfindən dəstəklənir, elmi mübahisələr genişlənirdi. Jurnal öz fikrini açıq yazaraq, xalqı başa salırdı ki, ana dilini unutmaq olmaz, uşaqlarınızı ana dilində oxutdurun, ana dilində məktəblərin açılmasına kömək edin. "Ax, necə arzu edərdim ki, mən də sahibixtiyar olub, ürəyimin dərdlərini meydana qoyub intişar edə biləm" – deyən böyük maarifçi C.Məmmədquluzadənin arzu etdiyi bu fikirlər Azərbaycanın mütərəqqi fikirli adamlarının hamısını düşündürən ideyalar idi.

“Molla Nəsrəddin” jurnalı Azərbaycan xalqına axıra qədər sadiq qaldı, onun özü qədər qədim mədəniyyətinə və dilinə hörmət bəslədi. Ana dilinin əhəmiyyəti və məktəblərdə onun tədrisinin jurnal səhifələrində ardıcıl olaraq irəli sürülməsi Azərbaycan pedaqoji fikrinin inkişafına müsbət təsir edirdi. Bu, mütərəqqi ziyalıları ruhlandırır və onlara yeni qüvvə verirdi. “Molla Nəsrəddin” jurnalının irəli sürdüyü bu məsələləri demokratik qüvvələr alqışladılar və ona kömək etdilər. “Dəbistan”, “Rəhbər”, “Qoç-Dəvət” və başqa jurnal və qəzetlər “Molla Nəsrəddin” jurnalının səsinə səs verdilər, onlar da ana dilinin tədrisi və ana dilində məktəblərin açılması ideyasını müdafiə etməyə başladılar. “Molla Nəsrəddin” jurnalının ana dilində oxumaq, ana dilində məktəblər açmaq fikrinə mürtəce qüvvələr əks çıxır, jurnalının irəli sürdüyü yeniliklərə mənfi münasibət bəsləyirdilər. Bu mürtəce qüvvələr getdikcə artırdı. Bu, elə bir dövr idi ki, ictimai hüququndan məhrum edilmiş, hüququ tapdalanmış, siyasi şüuru zəif olan milyonlarla savadsız adamları oyatmaq lazım idi. Bu sahədə aparılan mübarizədən jurnal qorxmur və çəkinmirdi, çünki o, xalqla bağlı idi, bu mübarizədə o, xalqa arxalanırdı. Jurnalın yazdığı kimi “Molla Nəsrəddin”i təbiət özü yaratmışdı, zəmanə özü yaratmışdı. “Cəlil Məmmədquluzadə bütün ömrü boyu xalqla bağlı olmuş iti yazıçı nəzərlərini xalqın həyatına dikib, onu ən incə psixoloji təzahürlərinə qədər öyrənmiş və əks etdirmişdir”.

Azərbaycan maarifpərvərləri ana dilində məktəb açmaq, dərs kitabları, proqramlar və s. yaratmaq üçün çalışarkən bu işin həyata keçməsinə mane olanlarla da mübarizə aparmalı olurdular. Sözdə ana dilində danışmağı istəyən, lakin həqiqətdə ana dilini bilməyən, ona hörmət etməyən insanların ikiüzlülüyünü “Molla Nəsrəddin” jurnalı ifşa edirdi. Jurnal “Meymunlar” adlı felyetonunda belə insanları tənqid edərək yazırdı: “hürriyyət və hüquq davası düşəndən indiyədək heç bir müsəlman məclisi olmayıb ki, orda bir obrazovannı müsəlman ayağa durub desin: “hökumət qoymayır məktəblərdə ana dilimizi öyrənəm!”. Bir saatlığa tutaq ki, hökumət qoymur məktəblərdə ana dilimizi öyrənək. Tutaq ki, bunu hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizi xoşlamağı kim qoymur?”

Mollanəsrəddinçilər Azərbaycan dilini bəyənməyən, ana dilinə laqeyd yanaşan, bütün hərəkətlərində, praktik işlərində onun qiymətini alçaldan adamlara qarşı amansız olmuş və onu jurnal səhifələrində ciddi şəkildə tənqid etmişlər. Mollanəsrəddinçilər dilimizi yabancı sözlərlə korlamağa çalışan, bəzi “təhsillilər”ə qarşı çox amansız olmuş və onların nöqsanlarını çəkinmədən tənqid etmişlər. Jurnala görə, belə ziyalılar ana dilimizi yabançı sözlərlə korlayır və ümumxalq mövqeyindən uzaqlaşdırırdılar.

C.Məmmədquluzadə xatirələrində yazırdı: "Necə ki, oxucularımıza məlumdur ki, biz "Molla Nəsrəddin" məcmuəsini açıq ana dilində yazmağa başladıq. Biz bu dilə o səbəbdən ana dili ad qoyuruq ki, bu dildə yazı yazanda və ortalığa "ana" söhbəti gələndə biz "ana"nı, "ana" da yazırıq, amma qeyri yazıçılarımız, xah o vədə və xah indi yazılarında "ana" ləfzi rast gələndə "ana" sözü əvəzinə "madər" yazırlar və həmçinin "ata" sözü əvəzinə "pədər" yazırlar.

"Molla Nəsrəddin" jurnalının səhifələrində ana dilinin saflığı uğrunda mübarizəyə dair çoxlu felyetonlara, şerlərə, son xəbərlərə, hekayələrə, Qafqaz xəbərlərinə, maraqlı şəkillərə və karikaturalara rast gəlmək olar. Bunlardan "Dili tutulub", "Dil", "Ana dili", "Meymunlar", "Bizim obrazovannılar", "Əvvəlinci məktub", "İkinci məktub", "Misyonerlər" və s. göstərmək olar. "Molla Nəsrəddin" jurnalı "Ana dili" adlı məqaləsində dilimizi hörmətdən salan, onu yabancı sözlərlə korlayan ziyalıları kəskin şəkildə tənqid edirdi.

O dövrdə xalqın sürətlə savadlanması, ana dilinin inkişafı üçün ərəb əlifbasından yeni əlifba ilə əvəz olunması çox vacib, həlli təxirə salınmaz məsələlərdən biri kimi dəyərləndirilirdi. Bu məsələni böyük ictimai, pedaqoji, metodik əhəmiyyətini dərindən başa düşən C.Məmmədquluzadə onun həyata keçirilməsi uğrunda ciddi səy göstərirdi. O, M.F.Axundovun bu yolda göstərdiyi səy və təşəbbüsü yüksək qiymətləndirir və onun fikrinə ürəkdən şərik çıxırdı. Ərəb əlifbasının nöqsanlarını ətraflı şərh edən böyük demokrat yazıçı belə nəticəyə gəlirdi: "Mən elə qanıram ki, nə qədər ərəb əlifbası ilə yazı-pozu edilir, mətbuat tərəqqi tapmayacaq, dil hörmətdən düşəcək, mili ədəbiyyat puç olacaq. O millət qeyri bir güclü millətə qarışıb yox olacaqdır".

C.Məmmədquluzadənin "Əlifba" və digər məqalə və felyetonlarında ərəb əlifbasının çatışmazlıqlarından ətraflı bəhs etmişdir.

"Molla Nəsrəddin" jurnalı Azərbaycan dilini təbliğ etməklə kifayətlənmir, bu dilin gözəlliyini, böyüklüyünü, əzəmətini tərənnüm edir, bu dildə yazmaqdan fəxr edirdi. Jurnal yazırdı ki, Azərbaycanın görkəmli oğulları olan Abbasqulu ağa Bakıxanov, M.F.Axundov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi öz əsərlərini, nəsihətnamələrini, dram əsərlərini Azərbaycan dilində yazmışdır, onlar doğma Azərbaycan dilini sevmişlər, onun təmizliyini, səlistliyini, gözəlliyini müdafiə etmişlər, onlar arzu etmişlər ki, uşaqlarımız ana dilində dərs oxusunlar. Beləliklə, jurnal dövrünün yazıçı və ədiblərini öz əsərlərini ana dilində yazmağa çağırırdı. "…Sair millətlərin həqiqi ədibləri və yazıçıları yaxşı anlayıblar və əsərlərini ana dilində yazmaqla belə millətin əxlaqını düzəldib, ağlına və ruhuna tərbiyə veriblər və verməkdədirlər".

Beləliklə, jurnal ana dilini qorumaqla mübarizəni təkcə özü yox, Azərbaycan xalqının yazıçılarını da mübarizəyə çağırır, onlardan kömək istəyirdi. “Molla Nəsrəddin” jurnalı “Ana dili” adlı məqaləsini bu sözlərlə qurtarır: “Millətini sevən, onun mənəvi diriliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirik ki, dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, xalq onların yazdıqlarını oxuyub anlasın, düşünsün və ayılsın. Ancaq bu yolla yazan ilə oxuyan arasında dostluq, ittifaq və birlik əmələ gəlir”. Mədəniyyətin tərəqqisi, onun ana dilinin inkişaf etməsindən çox asılıdır. Bunsuz milli mədəniyyət yaratmaq olmaz.

C.Məmmədquluzadə “rus-tatar” (Azərbaycan) məktəblərində ana dilinin tədrisinin və öyrənilməsinin o qədər də yaxşı olmadığını göstərirdi. O, “Tərcümeyi-halın”, “Dili tutulub” və başqa məqalə və felyetonlarda bu məsələdən geniş bəhs etmişdir. “Tərcümeyi-halın” adlı məqalədə yazırdı ki, o vaxtlar hökumət təsis etdiyi məktəblərin proqrammasında xala-xatırın qalmasın, babətindən həftədə bir neçə saat türk (Azərbaycan) dili verirdi. Qalan dərslər rus dilində gedirdi. Bu fikri o, “Dili tutulub” adlı məqaləsində daha kəskin şəkildə irəli sürürdü. Orada ana dilinin başdan soyudma bir neçə saat öyrədilməsini insanın ölümü kimi qiymətləndirirdi.

“Bakıdan məktub” felyetonunda oxuyuruq: “Biz pervı russki-tatarski şkolanın posledniy klassının uçenikləri qospodin Molla Nəsrəddinnən prasit edirik ki, bizim bu jalobamızı öz jurnalında napeçat eləsin”. “Molla Nəsrəddin” jurnalı bununla qeyd edirdi ki, müəllimlər hər iki dili yaxşı bilmədikləri üçün nəinki özlərini, həm də dərs verdikləri şagirdləri korlayırlar.

Ana dilinə xor baxan, onu qiymətləndirməyən, ana dilində danışmağı özünə əksiklik hesab edən, Avropada təhsil almış, zahirən bilikli, ziyalı görünən, lakin son dərəcə mürtəce fikirlərlə yaşayan, ana dilinin tədris edilməsinə əhəmiyyət verməyən və xalqın öz dilində, öz məktəbində savadlandırılmasında mühafizəkarlığın müdafiə edənlər “Molla Nəsrəddin” jurnalı səhifələrində şiddətli tənqid atəşinə tutulur, jurnal belə adamlara acıyır, ona gülürdü. “Mənim bir rəfiqəm var, özü də müsəlman, amma məni görəndə rus dilindən başqa savayı özgə dildə danışmaz”.

- Nə səbəbə sən mənim ilə heç müsəlmanca danışmaq istəmirsən? Yoldaşım mənə cavab verir:

- Sluşay, kak-to stıdno, koqda obrazovannıy çelovek po-tatarski qovorit… / yəni brazovan müsəlmanca danışmağı eyibdir!

- Çox sağ ol, rəfiqəm, mən bunu bilmirdim! Yaxud da “Ana dili” felyetonunda ali təhsil almış azərbaycanlıların Azərbaycan dilində danışmadıqlarını tənqid edərək

yazırdı ki, ali təhsil almış bir cavan məktəbi qurtarıb evinə gəlir. Bununla görüşə gələn molla əvvəl ərəbcə, sonra farsca onunla söhbət edir. Ali təhsilli anlamır, oğlan rus dilində danışır, bu zaman molla heç bir şey anlamır. Nəhayət onlar bir-birlərini anlamayaraq ayrılırlar. Bu söhbətə qulaq asan ana otağa gəlib oğluna deyir ki, mən başa düşmədim, siz nə dildə danışırsınız. Oğlan cavab verir: "Ana, mollaynan biz ana dili danışırıq…" Anası deyir: "Yazıq ana dili". Beləliklə, 3 nəfər azərbaycanlı bir-birini başa düşmədən ayrılırlar.

Doğma ana dilinin saflığı və mühafizəsi C.Məmmədquluzadənin "Ananın kitabı" əsərində inandırıcılıqla əsaslandırılmışdır. Akademik İsa Həbibbəyli əsər haqqında yazır: "Anamın kitabı" əsəri müəllifin milli istiqlal, dövlətçilik, müstəqillik ideallarını özündə əks etdirən çox qiymətli məxəzdir".

Bütün bunlar həm də çarizmin müstəmləkə siyasəti ilə əlaqədar idi, ucqar xalqların dilinə, mədəniyyətinə qiymət verməməkdən irəli gəlirdi. "Molla Nəsrəddin" jurnalında bir şəkil təsvir edilir, məktəb müəllimi əlində yekə bir dil tutub uşaqların qarşısında dayanmışdır. Uşaqlar da öz dillərini çıxarıb müəllimə göstərirlər:

- Şagirdlər: "Ay Mirzə, bizim də dilimiz var, sən, Allah, qoy onu da biz öyrənək".

- Müəllim: "Yox, olmaz. Gərək bunu soxam boğazınıza". "Molla Nəsrəddin" jurnalının ana dili sahəsində tutduğu mövqe çox mütərəqqi və düzgün olmuşdur, ona görə də böyük xalq kütləsi onu sevə-sevə oxuyurdu. "Molla Nəsrəddin" jurnalında Qafqaz Şeyxül-islamına iki açıq məktub dərc edilmişdi. İstər birinci və istərsə də ikinci məktubda yazılır: nə üçün erməni, gürcü, rus qızları məktəblərdə başqa dərslərdən əlavə ana dilini oxuyurlar, amma Azərbaycan qızları isə öz ana dillərini oxumurlar. "Molla Nəsrəddin" jurnalının dil sahəsindəki siyasəti ardıcıl idi. Öz fəaliyyətinin 25 ili ərzində bu sahədə də demokratik cəbhə tutmuş və nəhayət qələbə çalmışdır.

Beləliklə, Cəlil Məmmədquluzadə və onun silahdaşlarının ana dilinin saflığı uğrundakı mübarizəsinə xidmət edən əsərləri ədəbiyyatımız üçün əsl milli özünüdərk kitabı, istiqlal, oyanış və maarif dərsliyidir.

*Tədbirin sonunda "Molla Nəsrəddin" jurnalının 120 illik yubileyinə dair slayd göstərilir.*

"Molla Nəsrəddin" jurnalı təkcə bir mətbuat orqanı deyil, həm də bir dövrün düşüncə aynası, milli oyanışın və maarifçilik ideyalarının güclü tribunasına çevrilmişdir. Onun səhifələrində səslənən fikir və çağırışlar xalqın ictimai şüurunun formalaşmasına, azad düşüncənin inkişafına və milli-mənəvi dəyərlərin qorunmasına mühüm töhfə vermişdir.

Bu gün jurnalın 120 illik yubileyini qeyd edərkən bir daha anlayırıq ki, “Molla Nəsrəddin”in irsi yalnız keçmişə aid deyil — o, müasir dövr üçün də aktuallığını qoruyan böyük bir məktəbdir. Jurnalın əsas məqsədi olan həqiqəti demək, cəmiyyəti düşündürmək və insanları elmə, maarifə səsləmək ideyaları bu gün də öz əhəmiyyətini itirmir.

Gənc nəslin “Molla Nəsrəddin” irsini öyrənməsi, jurnalın satirik dili və maarifçi ruhu ilə yaxından tanış olması milli mətbuat tariximizin dərindən mənimsənilməsi baxımından xüsusi önəm daşıyır. Çünki bu jurnal Azərbaycan ictimai fikir tarixində azad sözün, milli özünüdərkin və tərəqqi ideallarının rəmzinə çevrilmişdir.

“Molla Nəsrəddin”in yandırdığı maarif işığı bir əsrdən artıqdır ki, yol göstərməkdə davam edir və inanırıq ki, bu işıq gələcək nəsillərin düşüncəsində də daim yaşayacaqdır.

“Molla Nəsrəddin” satirik jurnalistika məktəbi ətrafında dövrün böyük yazıçı, rəssam, ziyalı qüvvələri toplaşaraq xalqın azadlıq hərəkatının ən məsul mərhələsində ona yaxından kömək göstərirdi. 2006-cı ildə bu satirik jurnalın 100 yaşı tamam oldu.

2006-cı ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin Sərəncamı ilə Azərbaycan mətbuatının, ədəbiyyatının, ümumiyyətlə, Azərbaycan mədəniyyətinin tarixində mühüm rol oynamış “Molla Nəsrəddin” jurnalının 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi nəzərdə tutulmuşdu. 2026 – cı ildə Molla Nəsrəddin Jurnalının 120 yaşı tamam olur. Bu vəsaitdə və göstərilən ədəbiyyat siyahısında “Molla Nəsrəddin” jurnalında ən çox dərc olunan ədiblərimizin satirik janr sahəsində yaradıcılığı ilə tanış olacaq, onların müxtəlif imzalarını öyrənəcək, jurnalın rəssamları haqqında məlumat verən mənbələrlə tanış olacaqlar. Tövsiyə göstəricisində aşağıdakı rubrikalar vardır:

“Molla Nəsrəddin” jurnalının tarixindən

“Molla Nəsrəddin”çilər :

a) Yazarlar

b) Rəssamlar

Kitablar

“Molla Nəsrəddin” jurnalının tarixindən

Ağayev İ. Tarixi yaddaşımızın böyük yadigarı : “Molla Nəsrəddin” satira jurnalının 100 illiyi. - Bakı : Elm, 2006. - 56 s.

Qasımova E. İmzalar “Molla Nəsrəddin” (1906-1921). - Bakı : Elm, 2011. - 60 s.

Bu kitab “Molla Nəsrəddin” jurnalındakı gizli imzaların tədqiqi sahəsində ilk təşəbbüsdür və XX əsrin əvvəlləri tarixi ədəbi prosesin müəyyən məqamlarını üzə çıxardır. Kitabda 1550-dən artıq inisial və gizli imza qeydə alınmışdır.

Molla Nəsrəddin : 10 cilddə (1906-1931). I cild : (1906-1907) / tərt.ed. T. Həsənzadə ; red.: Ə. Ağalarov, S. Əzizova ; bədii tərt. F. Fərəcov. - Bakı : Azərnəşr, 1996. - 712 s. : rəngli il., şək.

Molla Nəsrəddin : 10 cilddə (1906-1931). II cild : (1908-1909) / tərt.ed., transliterasiya T. Həsənzadə ; red. Ə. Ağalarov ; red. S. Əzizova ; bədii tərt. F. Fərəcov. - Bakı : Azərnəşr, 2002. - 720 s. : rəngli il., şək.

“Molla Nəsrəddin” : 10 cilddə. III cild : 1909-1910-cu illər (№23-52) / Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu ; red. T. Kərimli ; transliterasiya və çapa haz.: E. Qasımova, T. Həsənzadə ; ön söz İ. Həbibbəyli ; naşir Q. İsmayıloğlu. - Bakı : Çinarçap, 2005. - 700 s. : rəngli il., şək.

“Molla Nəsrəddin” : 8 cilddə. IV cild : 1911-1914- cü illər / Azərbaycan Milli Elmlər

Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu; red.: B. Nəbiyev, T.H Kərimli ;

transliterasiya və çapa haz.: Ə. Hüseynov, T. Həsənzadə. - Bakı : Çinar-çap, 2008. - 884 s. : rəngli şək. - Azərbaycan və rus dilində.

“Molla Nəsrəddin” : 8 cilddə. V cild : 1917, 1921-1924-cü illər / Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu; red.: B. Nəbiyev, T.H Kərimli ; transliterasiya və çapa haz.: E. Qasımova, Ə. Hüseynov. - Bakı : Çinar - Çap, 2009. - 892 s. : rəngli şək. - Azərbaycan və rus dilində.

“Molla Nəsrəddin” jurnalının kitab şəklində nəşrinin bu cildinə Tiflisdə nəşr olunan 1917- ci ilin nömrələri, Təbrizdə nəşr olunan 1921-ci ilin nömrələri və Bakıda nəşr olunan 1922-1924-cü ilin nömrələri salınmışdır.

“Molla Nəsrəddin” : 8 cilddə. VI cild : 1925-1926-cı illər / Azərbaycan Milli Elmlər

Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu; red.: B. Nəbiyev, T.H Kərimli ; transliterasiya və çapa haz. Ə. Hüseynov. - Bakı : Çinar-çap, 2010. - 984 s. : rəngli şək. - Azərbaycan və rus dilində. - (super cildli)

"Molla Nəsrəddin" : 8 cilddə. VII cild : 1927-1928-ci illər / Azərbaycan Milli Elmlər

Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu; red.: B. Nəbiyev, T.H Kərimli ; transliterasiya və çapa haz. Ə. Hüseynov. - Bakı : Çinar-çap, 2010. - 836 s. : rəngli şək. - Azərbaycan və rus dilində.

"Molla Nəsrəddin" : 8 cilddə. VIII cild : 1929-1931-ci illər / Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutu; red.: B. Nəbiyev, T.H Kərimli ; transliterasiya və çapa haz.: E. Qasımova, T. Həsənzadə. - Bakı : Çinar-çap, 2010. - 696 s. - Azərbaycan və rus dilində.

Üzeyir bəy Hacıbəyov və "Molla Nəsrəddin". - Bakı : Adiloğlu, 2007. - 88 s.

Kiril qrafikası ilə Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşri tarixi – B.: Azərnəşr,1959. – 250 s.

Kitablarda

Aşırlı A. "Molla Nəsrəddin" jurnalı // Azərbaycan mətbuatı tarixi. I hissə : 1875-1920. - Bakı : Elm və Təhsil, 2009. – S.143-167.

Haqverdiyev Ə. "Molla Nəsrəddin" haqqında xatiratım // Haqverdiyev Ə. Seçilmiş

əsərləri. 2 cilddə. II c. – B.: Lider, 2005. – S. 370-375.

Jurnalın yaradıcı heyəti // Azərbaycan mətbuat tarixi / tərt. Şahverdiyev A.B. – B.:

Təhsil, 2006. – S.84-93.

"Molla Nəsrəddin" // Cəlil Məmmədquluzadə ensiklopediyası. - Bakı : Şərq-Qərb, 2008. – S.197-208

"Molla Nəsrəddin" aeroplanı // Cəlil Məmmədquluzadə ensiklopediyası. - Bakı : Şərq- Qərb, 2008. – S.209.

"Molla Nəsrəddin" salnaməsi // Cəlil Məmmədquluzadə ensiklopediyası. - Bakı : Şərq- Qərb, 2008. – S.209210

"Molla Nəsrəddin" // Üzeyir Hacıbəyov ensiklopediyası. – Bakı : Şərq-Qərb, 2007. - S.151.

Rəsulzadə M. Ə. "Molla Nəsrəddin" // Əsərləri. III c. : 1915-1916. – B. : Təhsil, 2014. – S. 399-403. – Açıq söz. – 1916. - № 166. – 22 aprel.

Satirik "Molla Nəsrəddin" jurnalı // Azərbaycan mətbuat tarixi. – B.: Təhsil, 2006. – S. 79

84.

Kiril qrafikası ilə

Axundov N. “Molla Nəsrəddin” //Axundov N. Azərbaycan satira jurnalları (1906 - 1920) – B.: Az.SSR EA, 1968. – S.16 – 63.

Dövri mətbuatda

“Molla Nəsrəddin”" jurnalının 100 illik yubileyi haqqında: Azərbaycan Respublikası Prezidentinin sərəncamı (16 yanvar 2006-cı il) // Xalq qəzeti. - 2006. - 24 yanvar. - S.1.

Abbaslı T. Dövrün aynası : “Molla Nəsrəddin”-104 // Mədəniyyət. - 2010. - 7 aprel. - № 20. - S. 6.

Abbaslı T. Öz zəmanəsinin ümummilli areal-aynası : “Molla Nəsrəddin” - 106 //

Mədəniyyət. - 2012. - 6 aprel. - № 23. - S. 10.

Ad // Azərbaycan. - 2006. - 1 aprel. - S.7. - Felyeton “Molla Nəsrəddin” jurnalının 37-ci nömrəsindən götürülüb.

Ağayev Ə. "Dəbistan" və “Molla Nəsrəddin” // Azərbaycan Müəllimi. - 2012. – 20 iyul. - № 28. – S.4.

Aslanov Y. “Molla Nəsrəddin” jurnalında təlim-tərbiyə məsələləri : “Molla Nəsrəddin” - 100 // Azərbaycan müəllimi. - 2006. - 21 aprel. - S.5.

Aydınoğlu T. İlk nömrə - 25 illik fəaliyyətin möhkəm özülü : “Molla Nəsrəddin” - 100 // Xalq qəzeti. - 2006. - 30 mart, 1 aprel. - S.6.; S.5.

Ad : “Molla Nəsrəddin”, №37. // Azərbaycan. - 2006. - 1 aprel. - S.7.

Aydınoğlu T. İlk nömrə - 25 illik fəaliyyətin möhkəm özülü : “Molla Nəsrəddin” - 100 // Xalq qəzeti. - 2006. - 30 mart, 1 aprel. - S.6.; S. 5.

Aydınoğlu T. Milli mətbuatımızım möhtəşəm abidəsi : “Molla Nəsrəddin”-100 // Xalq qəzeti. - 2011. - 17 aprel. - № 81. - S. 5.

Azərbaycan mədəniyyətinin görkəmli hadisəsi : "“Molla Nəsrəddin” - 100" //

Azərbaycan. - 2006. - 21 fevral. - S.6.

Azərbaycanın ilk şəkilli satirik jurnalı : "“Molla Nəsrəddin” - 100" // Xalq qəzeti. - 2006. - 27 aprel. - S.7.

Bayramoğlu A. “Molla Nəsrəddin” jurnalının yeni nəşrləri // Ədəbiyyat qəzeti. - 2010. - 9 aprel. - N 14. - S. 1.

Bayramoğlu A. Əhməd bəy Ağayevin "Dəbistan" və "Molla Nəsrəddin" məqaləsi və mətbuata dair fikirləri : mətbuat tariximizdən // Azərbaycan Müəllimi. - 2012. - 20 iyul. - № 28. - S. 4.

Cavadlı C. Zülmətə işıq saçan jurnal : "Molla Nəsrəddin" - 100 // Azərbaycan müəllimi. - 2006. - 17 mart. - S.7.

Cavanşir H. "Molla Nəsrəddin" təxəllüslü Mirzə Cəlil Məmmədquluzadənin əsil-nəcabəti və uşaqlıq illəri // Yada düşdü. - 2012. - № 3. - S. 23-30.

Cəfərova E. Abbas Zamanov və "Molla Nəsrəddin"çilər // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 1. - S. 66-69.

Dünyamin qızı Q. Anadangəlmə mollanəsrəddinçi : Şura hökuməti Əbdürrəhim bəy

Haqverdiyevə də ögey münasibət bəsləyirdi // Kaspi. - 2016. – 18 mart. - № 48. – S. 6.

Dünyamin qızı Q. Bəxti gətirən "Molla Nəsrəddin"çi : Əli Nəzmi // Kaspi. - 2013. - 24 sentyabr. - № 173. - S. 15.

Dünyamin qızı Q. Mətbuat tariximizin orijinal siması : "Molla Nəsrəddin"çi publisist Hüseyn Minasazov mətbuata "Kaspi"dən gəlmişdi // Kaspi. - 2016. - 5 may. - № 77. - S. 15.

Dünyamin qızı Q. Molla Nəsrəddinin azyaşlı yazarı : Tənqidçi, tərcüməçi, ədəbiyyatşünas və mətnşünas alim kimi tanınan Əziz Şərif həm də görkəmli mətbuat xadimi idi // Kaspi. - 2016. - 29 mart. - № 50. - S. 15.

Dünyaminqızı Q. "Molla Nəsrəddin"in 25 yaşlı redaktoru : Mirzə Cəlil bir müddət

jurnalın taleyini Məmmədəli Sidqiyə etibar etmişdi // Kaspi. - 2016. - 13-15 fevral. - № 25. - S. 6.

Dünyamin qızı Q. "Molla Nəsrəddin"in "Neştər" imzalı yazarı : Eynəli bəy Sultanov // Kaspi. - 2013. - 6 sentyabr. - № 161. - S. 15.

Dünyamin qızı Q. Molla Nəsrəddinin birinci və daimi rəssamı : Jurnalın uğur qazanmasında məşhur rəssam Oskar Şmerlinqin də böyük rolu vardı : "Molla

Nəsrəddin" - 110 // Kaspi. - 2016. - 2 iyul. - № 115. - S. 7.

Dünyamin qızı Q. Tarixi boyu mətbuata örnək olan "Molla Nəsrəddin" // Kaspi. - 2013. - 10 aprel. - № 61. - S. 15.

Elmi-praktik konfrans olub : "Molla Nəsrəddin" - 100 // Azərbaycan. - 2006. - 16 aprel. - S.5.

Əbdülsəlimzadə Q. “Molla Nəsrəddin” jurnalında sosial - iqtisadi məsələlər // Xalq qəzeti. - 2006. - 6 aprel. - S.6.

Əbdülsəlimzadə Q. Cəlil Məmmədquiuzadənin ictimai-iqtisadi görüşləri : publisistika // Azərbaycan. - 2006. - № 5. - S.185-189.

Əhədov E. “Molla Nəsrəddin” jurnalı və Lənkəran məktəbi : “Molla Nəsrəddin” - 100 // Azərbaycan müəllimi. - 2006. - 24 mart. - S.1,7.

Əhədov E. “Molla Nəsrəddin” jurnalının Lənkəran müxbirləri : “Molla Nəsrəddin” - 100 // Ədəbiyyat qəzeti. - 2006. - 14 aprel. - S.2.

Əliqızı A. “Molla Nəsrəddin” - 100 // Planet . - 2006. - №4 aprel. - S.3.

Əliqızı A. “Molla Nəsrəddin” - 100 // Şəkər villası. - 2006. - 4-10 aprel. - S.3.

Əliyev R. “Molla Nəsrəddin” jurnalının 100 illiyinə töhfə : “Molla Nəsrəddin” jurnalının Təbrizdə çap olunmuş 8 nömrəsinin faksimili kitab şəklində nəşr edilib. Əliyeva S. mart. - S.4.

Əsl xalq jurnalı : “Molla Nəsrəddin” // Azərbaycan müəllimi. - 2006. - 3

Əsədov B. Oxucular “Molla Nəsrəddin” i deyib gəlmişdilər // Azərbaycan. - 2006. - 15 aprel. - S.4.

Əsgərova S. “Molla Nəsrəddin” jurnalı və qadın azadlığı məsələsi // Azərbaycan. - 2011. - № 8. - S. 180-183.

Fərəcov S. İkinci Sabirimiz : əli Nəzmi "Molla Nəsrəddin" dərgisinin ən fəal yazarlarından olub // Mədəniyyət. - 2016. - 6 may. - № 35. - S. 13.

Fərəcov S. Maarif təşnəsi : [Qurbanəli Şərifzadə haqqında] // Mədəniyyət. - 2016. - 4 may. - № 34. - S. 15.

